RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 143 (8459) CÜMƏ AXŞAMI, 23 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Kiçik qisas alındı, növbə böyük qisasındır!



## Satqınlar və xəyanətkarlar da məsuliyyətdən yaxa qurtara bilməyəcəklər

Sövet dövründə Sov.İKP ilə bağlı çoxsaylı lətifələr yaradılmışdı və hamı bunları bir-birinə söyləyərək gülürdü. Onlardan biri belə idi:

Bir dəfə sıravi fəhlələrdən birini raykomun bürosunda partiyaya qəbul edirlər. Büro üzvlərindən biri namizədə sualla müraciət edir:

- Bizim düşmənimiz kimdir? - (O zamanlar dünya imperializmi kommunizmin düşməni sayılırdı).

Fəhlə sadəlövlüklə ürəyindəkini söyləyir:

- Ermənilər!

Partkom işin korlandığını və buna görə başının ağrayacağını duyaraq onun səhvini düzəltmək üçün suala düzəliş verir:

- Adə, daxili düşmənləri soruşmur ey, xarici düşmənləri xəbər alır!

**Dövr və zaman dəyişib.**

**Hətta düşmənlər də!**

**Bu gün ermənilər artıq xarici düşmənə, torpaqlarımızın işğalçılarına çevriliblər.**

*Daxili düşmənlər rolunda isə özümüzünkülər çıxış edirlər: satqınlar, xəyanətkarlar, radikallar, "5-ci kolon" üzvləri, təxribatçılar və sosial şəbəkədə murdarlıq edənlər.*

### Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olan əməliyyat

Öz aləmində özünü "ağıllı və bic" hesab edən Paşinyan sələflərinin "səhvini düzəltmək", Aprel müharibəsinin və Günnüt əməliyyatının əvəzini çıxmaq üçün qəflətən Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətindən Azərbaycana hücuma keçdi, yaşayış məntəqələrini və sərhəd postlarını top atəşinə tutdurdu.

Erməni xisləti, erməni məkri burada da duyulurdu. Ancaq, necə deyərlər, daş qayaya rast gəlmişdi!

Siyasətin ibtidai sinfində oxuyan Paşinyan siyasət nəhəngi İlham Əliyevi heç cürə çaşdıra bilməzdi.

Ermənistan ərazisindən gülünc bir bəhanə ilə Azərbaycana hücum edən Paşinyan Azərbaycanın Aprel döyüşlərində olduğu kimi, güclü əks-hücuma keçəcəyini gözləyirdi.

Öz ağlı ilə...

Bununla da o KTMT-ni - xüsusən Rusiyanı Azərbaycan əleyhinə hərbi əməliyyatlara cəlb edəcəyini düşünürdü...

**Ali Baş Komandan İlham Əliyev özünün siyasətçi müdrikliyini və uzaqgörənliyini, sərkərdə məharətini və qətiyyətini növbəti dəfə də nümayiş etdirərək Paşinyana hərb və siyasət dərsi keçdi, onu sələflərindən də axmaq vəziyyətə saldı!**

Bütün bunları Azərbaycan xalqı ilə bərabər, bütün dünya da gördü!

*Gördü ki, Azərbaycan "erməni bicliyi"nə uymadan Ermənistanın başından necə vurdu!*

*Gördü ki, dinc əhalini və sərhədyanı kəndləri top atəşinə tutan düşmənə müasir silahlardan necə dağıdıcı zərbələr endirildi!*

*Gördü ki, Azərbaycan düşmənə bir santimetr belə torpaq vermədən, bir addım belə geri çəkilmədən onu necə hərbi əməliyyata başlamasına peşiman etdi!*

**Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə Milli Ordumuz düşmənin bütün atəş nöqtələrini, hərbi texnika və canlı qüvvəsini tarmar edərək hərbçilərimizin qisasını qısa vaxtda aldı.**

*12 iyulda keçirilən əməliyyatda nə gördük?*

*2016-cı ilin dörd günlük Aprel müharibəsində gördüklərimizdən də artığını:*

- Azərbaycan xalqı düşmənin hücum xəbərini alan tək bir nəfər kimi ayağa qalxdı, dövlətinə, Ali Baş Komandanına dəstəyini və məhəbbətini ifadə etdi;
- Azərbaycan Ordusu baş sərkərdə İlham Əliyevin rəhbərliyi ilə düşmənə bir-birinin ardınca sarsıdıcı, dağıdıcı zərbələr endirərək, malik olduğu müasir silahların gücünü göstərdi;

Ardı 3-cü səh.

## Antonio Quterreş Ermənistan-Azərbaycan sərhədində baş vermiş hərbi toqquşmalardan narahatdır

**İyulun 22-də BMT-nin Baş katibi Antonio Quterreş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**



BMT-nin Baş katibi Antonio Quterreş, ilk növbədə, Ermənistan-Azərbaycan sərhədində baş vermiş hərbi toqquşmalardan narahat olduğunu bildirib və insan tələfatı ilə bağlı təəssüf hissini ifadə edib. BMT-nin Baş katibi, eyni zamanda, qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda status-kvo həmişəlik davam edə bilməz və o, hərbi əməliyyatlara son qoyulmasına, danışıqların davam etdirilməsinə çağırıb.

Prezident İlham Əliyev telefon zənginə və sərhəddə baş vermiş hadisələrlə bağlı şəxsən diqqət göstərdiyinə görə BMT Baş katibinə minnətdarlığını bildirib. Dövlət başçısı məlumat verib ki, Ermənistan tərəfi təkcə Azərbaycan hərbçilərini deyil, Azərbaycan kəndlərini də atəşə tutub və bunun nəticəsində hərbçilərimizlə yanaşı, 76 yaşlı mülki şəxs də həlak olub. Azərbaycan Ordusunun adekvat cavabı nəticəsində Ermənistanın hücumunun qarşısı alınıb və hazırda vəziyyət nisbətən sabitləşib. Prezident İlham Əliyev vurğulayıb ki, toqquşmalar işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan uzaq məsafədə baş verib və Azərbaycanın Ermənistan ərazisində hərbi məqsədləri yoxdur. Biz, sadəcə, öz ərazilərimizi və insanlarımızı qorumalıyıq və qoruyuruq.

Dövlət başçısı BMT Baş katibinin bu fikri ilə razı olduğunu bildirib ki, status-kvo həmişəlik davam edə bilməz və qeyd edib ki, Azərbaycan həmişə danışıqlar masası arxasında konstruktiv mövqedə olub. Lakin Ermənistan baş nazirinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı və digər tərəfdən onun "Azərbaycan Ermənistanla deyil, Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bildirməsi danışıqlar prosesini ciddi şəkildə təhlükə altına salır.

Dövlət başçısı bir daha vurğulayıb ki, Ermənistan 30 ilə yaxındır BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoymur. Prezident İlham Əliyev bir daha BMT-nin Baş katibinə telefon zənginə və sərhəddə baş vermiş hadisələrə göstərdiyi diqqətə görə minnətdarlığını bildirib.

***Prezidentin Mətbuat Xidməti***

## İlham ƏLİYEV: "Azərbaycan mətbuatı hər zaman ölkəmizin həyatında mühüm rol oynamışdır"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi "Facebook" səhifəsində 22 iyul - Milli Mətbuat Günü münasibətilə paylaşım edib.**



AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əsası "Əkinçi" ilə qoyulan, maarifçilik, müasirlik və müstəqillik ideyalarının daşıyıcısı olan Azərbaycan mətbuatı hər zaman ölkəmizin həyatında mühüm rol oynamışdır".

## Birinci vitse-prezident Mehriban Əliyeva KİV nümayəndələrini təbrik edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Azərbaycan milli mətbuatının 145 illik yubileyi ilə bağlı paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Hörmətli KİV nümayəndələri! Əziz dostlar!

Sizi Azərbaycan milli mətbuatının 145 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Hər birinizə möhkəm cansağlığı, səadət, sevinc, nikbinlik, tükənməz enerji, yaradıcılıq uğurları və yeni-yeni nailiyyətlər arzulayıram!"

## Saxta erməni təbliğatı bütün dünyada fiaskoya uğrayır

### ABŞ Konqresində ilk dəfə olaraq Ermənistan əleyhinə düzəlişlər qəbul edilib

Erməni yalanlarının bütün dünyada ifşa olunması artıq reallıqdır. İndi xarici ölkələrdəki erməni diaspor təşkilatlarının saxta təbliğatı əvvəlkitək ayaq tutub yerimir. Bugünkü reallıqları, tarixi həqiqətləri düzgün dəyərləndirən ayrı-ayrı ölkələrin siyasi mərkəzləri uzun illərdir dünyanı aldadan ermənilərin əlində artıq alət olmaq istəmirlər. Bir neçə gün öncə ABŞ Konqresində Azərbaycan əleyhinə daşnaklar tərəfindən təşviq olunan qanunvericilik təkliflərinin qarşısının qətiyyətlə alınması və ilk dəfə olaraq Ermənistan əleyhinə düzəlişlərin qəbul edilməsi bunu təsdiq edir.

### ABŞ-dan ermənilərə zərbə

ABŞ-ın erməni qrupları 2021-ci maliyyə ili üzrə "Milli Müdafiə Maliyyələşmə Qanunu" layihəsinə Konqresin bəzi erməni-pərəst üzvlərinin dəstəyi ilə düzəlişlərin daxil edilməsi istiqamətində səy göstəriblər. Bu proses çərçivəsində Azərbaycana dəstək verən bir sıra Konqres üzvləri öz növbəsində Ermənistan əleyhinə iki düzəliş irəli sürüblər. İyulun 17-də keçirilən ABŞ Konqresinin Nümayəndələr Palatasının Qaydalar Haqqında Komitəsinin iclasında Konqres üzvləri Stiv Kohen və Stiv Şabot tərəfindən təklif olunan Ermənistan əleyhinə düzəlişlər Konqresin Nümayəndələr Palatası tərəfindən qəbul olunub.

Ardı 7-ci səh.




**"Bu gün Azərbaycan həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm mənfur qonşu ilə mübarizədə çox böyük bir gücə çevrilib. Bunu biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycanın müstəqilliyi, azadlığı, insanların rifahı və ölkəmizin güclənməsi daim diqqət mərkəzində olacaq".**

## Prezident İlham Əliyev işğalçı Ermənistanı döyüş meydanında təkbətək savaşa çağırdı

Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki çıxışı ilə Prezident İlham Əliyev bir daha bəyan etdi ki, dünyanın əksər dövlətləri qlobal böhran qarşısında aciz qaldığı zamanda Azərbaycan iki cəbhədə mübarizə aparır. Bir tərəfdən qlobal pandemiya, digər tərəfdən təcavüzkar Ermənistanın hərbi təxribatları ilə üz-üzə qalmasına baxmayaraq, Azərbaycan həm beynəlxalq layihələrin icrası ilə bağlı üzərinə götürdüyü öhdəlikləri, həm də ilin əvvəlində müəyyənləşdirilən sosial layihələrin icrasını uğurla reallaşdırır.

Bütün bunlar dövlətin iqtisadi qüdrətinin, gücünün göstəricisidir. Bu potensial əlbəttə ki, cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində formalaşıb.

Ardı 5-ci səh.

## Ermənistan yeni siyasi böhrana yuvarlanır

### Paşinyan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından da istədiyini ala bilmədi

Ermənistanda sosial-iqtisadi, ictimai-siyasi müstəvidə vəziyyətin getdikcə pisləşməsi müşahidə olunmaqdadır. Belə görünür ki, həm əhalinin maddi rifah halının pisləşməsi, həm də daxili və xarici siyasətdə qeydə alınan uğursuzluqlar qarşıdakı günlər ərzində hakimiyyət üçün yeni problemlərə gətirib çıxaracaq. İşğalçı ölkədə qeyd edilir ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Avrasiya Hökumətlərarası Şurasında iştirakı üçün Minskə səfəri böyük gözləntilərə baxmayaraq, tamamilə əks vəziyyətdə müşahidə olundu.

Baş nazirin Avrasiya Hökumətlərarası Şurasında iştirak etmək üçün Minskə səfərini birmənalı hadisə adlandırmağın çətin olduğunu qeyd edən ekspertlər üç həftə bundan əvvəl Ermənistan rəhbərinin respublikada epidemioloji vəziyyətin mürəkkəb olmasına istinad edərək Moskvaya, Qələbə paradına getməkdən imtina etdiyini vurğulayırlar.

Rusiyanın "Lenta.ru" saytı ölkəsində koronavirusla bağlı vəziyyətin getdikcə pisləşməsinə və Azərbaycanla münaqişənin kəskinləşməsinə baxmayaraq, baş nazir Nikol Paşinyanın Minskə gəlmə səbəbini araşdırıb. Qeyd olunub ki, baş nazirin Minskə gəlişi çoxları üçün gözlənilməz olub.

Ardı 7-ci səh.

# Azərbaycan Prezidentinin köməkçisi bir sıra ziyalı və ictimai xadimlərlə görüşüb





**Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov Heydər Əliyev Mərkəzində bir sıra ictimai xadim və ziyalılarla görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə koronavirus pandemiyası ilə mübarizə istiqamətində ölkəmizdə görülən işlər və bundan sonra atılacaq addımlar, eyni zamanda, son günlər Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətinə baş vermiş hadisələr və digər məsələlər ətrafında müzakirələr olub.

Azərbaycan Prezidentinin köməkçisi ötən dövr ərzində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tövsiyə və tapşırıqlarına uyğun olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahda aparılmış müzakirələr və görülən işlər barədə ətraflı məlumat verib. Bildirib ki, atılan məqsədyönlü və ardıcıl addımlar nəticəsində yoluxmaların sayının azalmasına nail olunub. Xarici ölkələrdən cəlb olunan mütəxəssislər virusa yoluxmuş xəstələrin müalicəsində azərbaycanlı həmkarlarına böyük dəstək göstəriblər və artıq müsbət nəticələr əldə etmək mümkün olur.

Anar Ələkbərov görülən işlərdə dövlətin çağırışlarına dərhal cavab verən, dəstək göstərən özəl sektorun rolunu da xüsusi qeyd edib. Bildirib ki, xarici mütəxəssislər də ölkəmizdə bu işin daha yaxşı və düzgün aparıldığını dəfələrlə vurğulayıblar. Bütün bunlar ölkəmizin tezliklə bu ciddi problemin öhdəsindən gələcəyini deməyə əsas verir. Bunun üçün daha həmrəy olmalı və vətəndaş kimi məsuliyyətimizi artırmalıyıq. Xüsusi karantin rejimində proseslərin mərhələli şəkildə yumşaldılmasından danışan Anar Ələkbərov addımların düşünülmüş şəkildə atıldığını, hazırkı dövrdə pandemiyanın yenidən sürətlə yayılması təhlükəsinin aradan qaldırılması üçün vətəndaşların dövlətlə həmrəylik nümayiş etdirməsinin və medianın, ictimaiyyət nümayəndələrinin bu sahədə təbliğatla bağlı dəstəyinin vacibliyini vurğulayıb.

Görüşdə, eyni zamanda, son günlər Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hadisələr müzakirə olunub və işğalçı Ermənistanın növbəti təxribatının fonunda insanların yüksək vətənpərvərlik və mübarizlik əhval-ruhiyyəsi nümayiş etdirdiyi bildirilib. Qeyd olunub ki, həmrəylik təkcə Azərbaycan daxilində deyil, dünyanın müxtəlif ölkələrində yaşanır. Müxtəlif dövlətlərdə yaşayan azərbaycanlılar Azərbaycanın haqq səsini çatdırmaq üçün birləşiblər. Amma bununla yanaşı, sosial şəbəkələrdə insanlara qorxu, panika hissini aşılamağa çalışanlar da var. Belə xoşagəlməz halların qarşısını almaq üçün isə imkanlarımızı səfərbər etməliyik. Bu istiqamətdə ictimai həyatda fəal olan şəxslərin fikirlərinin, təkliflərinin əhəmiyyətli olduğu bildirilib.

Görüşdə çıxış edən yazıçılar, şəhidlərin ailə üzvləri, jurnalistlər, deputatlar, hüquqşünaslar və incəsənət xadimləri belə bir formatda görüşün təşkilinə görə minnətdarlıq ediblər. İctimai xadimlər pandemiya dövründə vətəndaşları narahat edən məsələlərə toxunub, öz fikirlərini və təkliflərini bildiriblər.

Çıxış edənlər sosial mediada aparılan təxribatlardan danışıblar və Azərbaycanın müharibə şəraitində olan bir dövlət kimi bunun qarşısını almaq üçün səmərəli mexanizmlər tətbiq etməli olduğunu vurğulayıblar.

Görüşdə ictimai xadimlərin suallarını cavablandıran Azərbaycan Prezidentinin köməkçisi səslənən fikirlərin əhəmiyyətini qeyd edib və təkliflərin nəzərə alınacağını bildirib.

# *Prezidentin köməkçisi:* "Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu hər zaman yeni gərginliyə yol aça bilər"

Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Fransanın "France24" televiziya kanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, verilişdə Hikmət Hacıyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz törətdiyini, 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərini işğal altında saxladığını və Ermənistanın Azərbaycana qarşı başladığı müharibənin davam etdiyini bildirib.

Prezidentin köməkçisi dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş toqquşmanın təsadüfi sərhəd insidenti olmadığını, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüz siyasətinin tərkibi olduğunu bildirib.

H.Hacıyev 2018-ci il Düşənbə görüşündən etibarən Azərbaycanın danışıqlar prosesini irəli aparmaq üçün konstruktiv addımlar atmasına baxmayaraq, Ermənistanın irticaçı xarakter daşıyan hərbi doktrina qəbul etdiyini, Ermənistan müdafiə nazirinin "yeni müharibələr, yeni ərazilər" şüarı ilə çıxış etdiyini, N.Paşinyanın "Qarabağ Ermənistandır" deməklə Azərbaycan ərazilərini anneksiya siyasəti yürütdüyünü xatırladıb. H.Hacıyev Ermənistanın rasizm və şovinizmə əsaslanan yeni milli təhlükəsizlik strategiyasını qəbul etdiyini vurğulayıb. O, Ermənistanın bu kimi addımlarının Tovuzda baş vermiş yeni təcavüz üçün zəmin yaratdığını deyib.




Prezidentin köməkçisi Azərbaycanın Ermənistanla sərhəd zonasında hər hansı hərbi məqsədlərin olmadığını, əksinə ölkəmizin həmin ərazidə sabitliyin təmin olunmasında maraqlı olduğunu vurğulayıb.

Ermənistanın bu hücumu törətməklə aşağıdakı məqsədləri güddüyünü deyib:

- Ermənistan bu yolla Ermənistan-Azərbaycan münaqişəsindən diqqəti yayındırmağa və danışıqlar prosesini pozmağa çalışır;
- Ermənistan regionda yeni gərginlik ocağı yaratmağa cəhd göstərir;
- Ermənistan üçüncü tərəfləri və üzv olduğu hərbi-siyasi təşkilatları münaqişəyə cəlb etməyə çalışır;
- Ermənistan kənarda qaldığı Şərq-Qərb dəhlizi və Azərbaycanın neft-qaz kəmərlərinə təhlükə yaratmağa səy göstərir;
- Ermənistan, eyni zamanda, gərginlik yaratmaqla ölkədaxili ciddi sosial-iqtisadi problemlərdən diqqəti yayındırmağa çalışır.

Prezidentin köməkçisi Ermənistanın Azərbaycanın mülki obyektlərini hədəfə aldığını və bir mülki şəxsin həlak olduğunu, Ermənistanın hərbi dairələrinin Azərbaycanı və ölkəmizin neft-qaz infrastrukturunu "İskander" raketləri ilə hədələdiyini diqqətə çatdırıb.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə toxunan H.Hacıyev danışıqların mahiyyətli olmalı olduğunu, həmsədrlərin BMT Təhlükəsizlik Şurasının qətnamələrindən irəli gələn mandatlarını yerinə yetirməli və Azərbaycan ərazilərinin işğaldan azad edilməsi istiqamətində fəaliyyət göstərməli olduqlarını bildirib.

Hikmət Hacıyev Ermənistanın saxtalaşdırılmış tarixin girovu olduğunu qeyd edərək Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunun hər zaman yeni gərginliyə yol aça biləcəyini vurğulayıb, qoşunların təmas xəttindəki vəziyyətin Birinci Dünya müharibəsində Fransa və Almaniya arasında olan səngər müharibəsinə bənzədiyini deyib.

Prezidentin köməkçisi XXI əsrdə işğalın və güc tətbiq edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsi cəhdlərinin qəbuledilməz olduğunu vurğulayıb və Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmalı olduğunu bildirib.

Xəbər ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq mümkündür:

https://www.youtube.com/watch?time_continue=1&v=lHVus4YMXPk&feature=emb_logo

# Azərbaycanın Xarici İşlər naziri ilə Türk Şurasının və İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibləri arasında telefon danışığı olub

İyulun 21-də Xarici İşlər naziri Ceyhun Bayramovun Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi (Türk Şurası) Bağdad Amreyev ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Baş katib Bağdad Amreyev Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsinə təyin olunması münasibətilə Ceyhun Bayramovu təbrik edib və ona fəaliyyətində uğurlar arzulayıb. Nazir Ceyhun Bayramov səmimi təbrikinə görə Baş katibə təşəkkür edib.

Tərəflər Azərbaycan ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası arasında əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə edib və bu əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

Baş katib Bağdad Amreyev Azərbaycanın təşkilat çərçivəsində fəal rolunu və təşkilatın işinə verdiyi töhfələri yüksək qiymətləndirib və ölkəmizlə əməkdaşlığın bundan sonra da yüksək səviyyədə davam edəcəyinə əminliyini ifadə edib.

Nazir Ceyhun Bayramov Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədində törətdiyi hərbi təxribat və bölgədə hələ də davam edən gərgin vəziyyət barədə Baş katibi məlumatlandırıb. O, Ermənistan silahlı qüvvələrinin son hərbi təxribatı və Azərbaycan-Ermənistan sərhədində yaşanan gərginliklə bağlı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası tərəfindən verilmiş ədalətli, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan bəyanata görə Baş katibə təşəkkürünü ifadə edib.

***

İyulun 21-də Xarici İşlər naziri Ceyhun Bayramovun İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Baş katibi Hadi Süleymanpur ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Baş katib Hadi Süleymanpurun səmimi təbriklərini qəbul edən nazir Ceyhun Bayramov Azərbaycanın ECO-da fəal iştirakına verilən dəstəyə görə qarşı tərəfə təşəkkürünü bildirib.

Tərəflər İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ticarət, informasiya və kommunikasiya texnologiyaları, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığın inkişafı imkanları ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Ermənistan tərəfindən iki dövlətin beynəlxalq sərhədində törədilən hərbi təxribat və yeni təcavüz cəhdi, eləcə də hazırda bölgədəki vəziyyət barədə Baş katibi məlumatlandırıb. Bölgədə yaşanan gərginliyin kökündə Ermənistanın Azərbaycana qarşı davam edən təcavüz siyasətinin və 30 ilə yaxındır ki, Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunda hərbi işğalın davam etməsinin durduğu qarşı tərəfin diqqətinə çatdırılıb. Nazir Ermənistanın son hərbi təxribatı ilə bağlı Baş katibin məktubuna istinad edərək, burada münaqişənin tezliklə həllinə çağırışı və bu xüsusda Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstəyi bir daha ifadə etdiyinə görə H.Süleymanpura təşəkkürünü ifadə edib.

# *Türkiyə Milli Təhlükəsizlik Şurası:* Ermənistan qanunsuz fəaliyyətinə son qoymalı, işğal altındakı Azərbaycan torpaqlarını tərk etməlidir

**"İllərdir Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanın sülhü pozan və beynəlxalq hüququ heçə endirən hərbi təcavüz cəhdlərini şiddətlə qınayırıq".**

Türkiyə Prezidenti Administrasiyasının İctimai əlaqələr idarəsi xəbər verir ki, bu fikir Türkiyə Milli Təhlükəsizlik Şurasının Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirilən toplantısı ilə bağlı yayılan məlumatda yer alıb. Bildirilir ki, Ermənistan qanunsuz fəaliyyətinə son qoymalı və işğal altındakı Azərbaycan torpaqlarını tərk etməlidir.

Məlumatda, həmçinin qeyd olunur ki, dünyadakı siyasi və iqtisadi vəziyyət yeni formada nizamlanır. Bu çərçivədə Türkiyə bütün sahələrdə güclü hazırlıq həyata keçirmək üçün zəruri olan mexanizmlər yaratmalıdır.

# Azərbaycan mətbuatının nümayəndələri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

İyulun 22-də Milli Mətbuatımızın 145 illiyi və Mətbuat Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF), Azərbaycan Mətbuat Şurasının, Milli Televiziya və Radio Şurasının nümayəndələri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

AZƏRTAC xəbər verir ki, sonra Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin məzarı önünə əklil qoyulub, böyük mütəfəkkirin xatirəsi anılıb.

# Azərbaycan milli mətbuatının 145 illik yubileyinə həsr olunmuş vebinar keçirilib

İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşəbbüsü ilə Azərbaycan milli mətbuatının 145 illik yubileyinə həsr olunmuş vebinar keçirilib.

Tədbir iştirakçıları Ermənistanın Azərbaycanla sərhədin Tovuz rayonu istiqamətində hərbi təxribatının qarşısı alınarkən şəhid olan əsgər və zabitlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Vebinarda çıxış edən KİVDF-nin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, keşməkeşli yol keçmiş milli mətbuatımızın intibah dövrü məhz müstəqillik illərinə təsadüf edir. Ümummilli Lider Heydər Əliyev ölkəmizdə müstəqil və güclü dövlətçilik ənənələrini bərqərar edərək mətbuatın demokratik məzmunu üçün lazım olan zəruri şəraiti təmin edib. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı mətbuatın keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını şərtləndirir.

Ə.İsmayılov KİVDF-nin yeni dövrün çağırışları və tələbləri ilə əlaqədar son aylar ərzində KİV-in inkişafına töhfə verəcək layihələrindən danışıb. Həmçinin bildirib ki, fondun yeni saytı təqdim edilib. Saytda "Azərbaycan milli mətbuat tarixinin virtual inciləri" sərgisi, Həsən bəy Zərdabinin xatirə muzeyinə virtual tur imkanı da yaradılıb.

Vebinarda Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova Azərbaycan mətbuatının 145 illiyi və informasiya-kommunikasiya sahəsində yeni çağırışlar barədə çıxış edib. Vurğulayıb ki, "Əkinçi" qəzetinin maarifçilik, müasirlik və istiqlal məfkurəsi kimi təməl prinsipləri bu gün də aktualdır.

Səadət Yusifova qeyd edib ki, son illər ərzində KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsi üçün bir çox tədbirlər həyata keçirilib. Ulu Öndər Heydər Əliyevin mətbuatın inkişafına yönəlmiş siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Dövlət başçısının milli mətbuatın 145 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncamında KİV-in fəaliyyət prinsipləri və istiqamətləri əksini tapıb.

Diqqətə çatdırılıb ki, fasiləsiz rejimdə informasiya axınının səmərəli idarə edilməsi, "fake news" və "deepfake" texnologiyaları dövründə informasiya təhlükəsizliyinin təmin edilməsi ən aktual məsələlərdən biridir. İnformasiya və hibrid müharibələrin üstünlük təşkil etdiyi hazırkı qlobal gündəm informasiya siyasətinin səmərəli qurulmasını, onun həyata keçirilmə mexanizmlərinin daim yenilənməsini, çevikliyin təmin edilməsini, media və kommunikasiya sahəsində islahatların dərinləşdirilməsini şərtləndirir.

Qeyd olunub ki, Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində hərbi təxribat törətməklə yanaşı, informasiya hücumlarının birgə tətbiqinə əsaslanan hibrid müharibə taktikasından istifadə edib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın son hadisələrlə bağlı xalqa müraciətində münaqişə dövründə informasiya təhlükəsizliyi məsələləri əhatə olunmaqla, sosial mediada müşahidə olunan mənfi təmayüllər dolğun şəkildə təhlil edilib. Müraciətdə hamımıza çağırış edilərək vurğulanır ki, bu gün hər birimizin borcu Azərbaycanın mövqeyini nəinki döyüş meydanında, həm də kompüter qarşısında müdafiə etməkdir.

Vebinarda Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov, Mətbuat Şurasının sədri Əflatun Amaşov, Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, Milli Məclisin deputatları Qənirə Paşayeva, Sevil Mikayılova, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, Real TV-nin baş direktoru Mirşahin Ağayev, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov çıxış ediblər.

# Polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışı keçirilib

İyulun 22-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər və rayon polis orqanlarında vakant post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, general-polkovnik Vilayət Eyvazov hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə ayrı-ayrılıqda maraqlanıb.

Kütləvi informasiya vasitələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 150 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Tədbirdə çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini vurğulayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını xatırladıb. General-polkovnik Vilayət Eyvazov gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, hər zaman polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini artırmalarını, öz üzərlərində səylə çalışmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, onların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, bir sözlə, vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini vermələrini tövsiyə edib.

# *Azərbaycan XİN:* ABŞ Dövlət Departamenti kimə və nəyə görə narahatdır, bunu başa düşə bilmirik

ABŞ Dövlət Departamentinin "ABŞ-ın COVID-19 pandemiyasına qarşı qlobal mübarizədə demokratiya, yaxşı idarəetmə və insan hüquqlarına dəstəyi" adlı informasiya bülletenində Azərbaycana istinad edilib. Dövlət Departamenti Azərbaycan hakimiyyətini COVID-19-a qarşı görülən tədbirlərin vətəndaş cəmiyyəti təbliğatını, müxalif səsləri və ya ictimai müzakirələri susdurmaq üçün istifadə edilməməsini təmin etməyə çağırıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bununla əlaqədar KİV-ə açıqlamasında deyib: "Corc Floydun ölümündən sonra hazırda bütün dünya ictimaiyyəti ABŞ-ı bürüyən iğtişaşlar səbəbindən bu ölkədəki vəziyyətə görə narahatdır. Belə bir şəraitdə ABŞ Dövlət Departamenti kimə və nəyə görə narahatdır, bunu başa düşə bilmirik".

# Sosial proqramların genişləndirilməsi, əhaliyə xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə aparılan işlər və qarşıda duran vəzifələr müzakirə olunub

Prezident İlham Əliyev tərəfindən sosial sahə ilə bağlı verilən tapşırıqların icrası olaraq, sosial müdafiə və aktiv məşğulluq proqramları bu il rekord səviyyədə genişləndiriləcək. Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev nazirlikdə 2020-ci ilin birinci yarısının yekunlarına dair videokonfrans formatında keçirilən kollegiya iclasında bildirib.

Nazir vurğulayıb ki, dövlət başçısının siyasətinin mərkəzində vətəndaş amili dayanır və bunun nəticəsidir ki, pandemiya dövründə də Azərbaycan güclü sosial siyasəti ilə seçilir və dövlət başçısı bütün sosial layihələrin artıqlaması ilə icra ediləcəyini bəyan edib. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, videokonfransda nazir Prezident İlham Əliyevin tapşırığı ilə şəhid ailələrinin, müharibə əlillərinin mənzillə təminatı proqramının bu il rekord səviyyədə icra olunacağını bildirib.

İyulun 21-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə 62 mənzilin, müharibə əlillərinə 50 avtomobilin təqdim olunması mərasimində dövlət başçısı 8 mindən çox şəhid ailəsi, müharibə əlilinin mənzillərlə təmin edildiyini, 7 minə yaxın avtomobil verildiyini qeyd edib. "Biz bu il də bu sahədə rekord göstəriciyə nail olacağıq, buna şübhə yoxdur. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilir və ediləcəkdir",- deyə bildirib. Prezident deyib: "Mən istəyirəm ki, biz bu proqramı tezliklə başa çatdıraq və buna nail olacağıq".

Nazir deyib ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həmin kateqoriyadan olan vətəndaşlara mənzillərin, həmçinin müharibə əlillərinə avtomobillərin təqdim edilməsi tədbirlərində iştirak etməsi, onlarla mütəmadi görüşlər keçirməsi də şəhid ailələrinə, müharibə əlillərinə xüsusi qayğının əyani təzahürüdür. Bu, bir daha göstərir ki, hər bir şəhid ailəsi, müharibə əlili daim Prezidentin qayğısı ilə əhatə olunub.

S.Babayev qeyd edib ki, nazirlik tərəfindən də şəhid ailələri və müharibə əlilləri ilə bağlı bütün sosial müdafiə tədbirləri dövlət başçısının həmin əhali qruplarına olan yüksək qayğısına layiq səviyyədə təşkil olunaraq, uğurla həyata keçiriləcək və bu sahədə atılan mühüm addımlar davam edəcəkdir.

İclasda Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan videokonfransda sosial sahə ilə əlaqədar verilən tapşırıqların icrası, sosial müdafiə və aktiv məşğulluq proqramlarının genişləndirilməsi sahəsində qarşıda duran vəzifələr müzakirə olunub.

2020-ci ilin birinci yarısı ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğuluq Agentliyi və Dövlət Sosial Müdafiə Fondu tərəfindən görülmüş işlərə, nazirlik tərəfindən Dövlət investisiya proqramının icra vəziyyətinə dair hesabatlar dinlənilib və müzakirə edilib.

Nazir diqqətə çatdırıb ki, dövlət sosial xidmətlərinin keyfiyyətinin daim yüksəldilməsi üçün islahatlar geniş vüsət alır. Dövlət sosial xidmətlərinin DOST xidmətləri müstəvisində bir pəncərədən, çevik və şəffaf təşkili vətəndaş məmnunluğuna yol açıb və nazirliyin tabeliyində publik hüququ şəxslərin yaradılması da bu məqsədə yönələn islahatların tərkib hissəsidir. DOST mərkəzlərinin yaradılması ilə yanaşı, əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahələrində elektron texnologiyaların tətbiqi də geniş vüsət alıb.

S.Babayev bildirib ki, əlilliyin qiymətləndirilməsi üzrə yeni meyarların tətbiqi əlilliyi olan şəxslərin aktiv həyat tərzinə malik olmaq, mövcud əmək potensiallarını reallaşdırmaq, əmək bazarında fəaliyyətlərinə davam etmək, cəmiyyətə inteqrasiya etmək imkanlarını artıracaq. Artıq bununla bağlı qabaqcıl dünya standartları nəzərə alınmaqla yeni qanunvericilik layihəsi hazırlanıb.

İclasda əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin müvafiq indeks meyarları üzrə qiymətləndirilməsinin nəticələri, əlilliyin qiymətləndirilməsinin yeni meyarlarına dair qanunvericilik layihəsindən irəli gələn məsələlər, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi" və "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları"nın təsdiq edilməsi haqqında 2000-ci il 28 fevral tarixli Qərarlarına dəyişiklik edilməsi barədə" Qərar layihələrinə dair müzakirələr də aparılıb.

# Xalq Ali Baş Komandanın və Ordunun ətrafında yumruq kimi birləşib



# Kiçik qisas alındı, növbə böyük qisasındır!

## Satqınlar və xəyanətkarlar da məsuliyyətdən yaxa qurtara bilməyəcəklər

*Əvvəli 1-ci səh.*

- Azərbaycan gəncləri hərbi səfərbərlik məntəqələrinə gəlib Orduya yazılaraq, düşmənə qarşı vuruşmaq üçün hərbi paltar geyinib silah götürmək əzmini nümayiş etdirdi;
- Azərbaycan xalqı şəhid balalarını çox böyük izzət və məhəbbətlə son mənzilə alqışlarla yola saldı, şəhidlərə və onların ailə üzvlərinə hörmət və ehtiramlarını bildirdi;
- Azərbaycan vətənsevərləri dövlət başçısı İlham Əliyevin hərbi əməliyyatlara rəhbərliyindən, yeritdiyi siyasətdən, şəhidlərin qisasını dərhal almasından məmnun qalaraq Ali Baş Komandana hörmət, məhəbbət və razılıqlarını səmimi sözlərlə ifadə edən saysız-hesabsız məktublar ünvanladılar;
- Azərbaycan xalqı öz rəhbərinin başçılığı ilə tezliklə işğal altındakı torpaqları azad etmək əzmini və niyyətini bir daha ortaya qoydu!

**Bəli, Ali Baş Komandanın qətiyyət və prinsipiallığı nəticəsində kiçik qisasımızı aldıq, itkilərimizin əvəzini artıqlaması ilə çıxdıq!**

**Növbə böyük qisasındır!**

- Bəli, Azərbaycan xalqı dağıdılan kənd və şəhərlərinin, məhv edilən tarixi abidələrinin, dini məbədlərinin, ictimai və şəxsi tikililərin qisasını alacaqdır;
- Azərbaycan xalqı şəhid olmuş övladlarının, yetim qalmış balalarının, əlil olmuş qazilərinin qisasını alacaqdır;
- Azərbaycan xalqı Xocalı, Qaradağlı, Bağanıs Ayrım və törədilmiş digər soyqırımlarının qisasını alacaqdır;
- Azərbaycan xalqı xaraba qalmış ev-eşiyinin, dağıdılmış qəbiristanlıqlarının, qaçqın düşərgələrində yaşadığı çətin və məşəqqətli günlərinin qisasını alacaqdır;
- Azərbaycan xalqı girovluqda iztirablar çəkdirilən qoca, qadın və uşaqların, gülləyə hədəf seçilən mülki vətəndaşlarının, qanına qəltan edilən fidan balalarının - Fazilərin və Aygünlərin qisasını alacaqdır!

*Bu qisasdan yaxa qurtarmağın yalnız bircə yolu var:*

*Ermənistanın indiki ağılsız və faşistpərəst rəhbərliyi olub-qalan ağlını başına yığmalı, qoşunlarını gecikmədən işğal ərazisindən çıxarmalı, məsələnin sülh yolu ilə, BMT-nin məlum qətnamələri əsasında həllinə razılıq verməlidir.*

**Azərbaycan xalqının və onun Ali Baş Komandanı İlham Əliyevin səbri kimi qəzəbi də böyükdür!**

Ermənistan növbəti dəfə bunu 12 iyul günlərində bir daha sınaqdan çıxardı!

### Vətəni sevmək azdır, onu qorumağı da bacarmalıyıq

Hər bir müharibədə hadisələr adətən iki məkanda cərəyan edir: ön cəbhədə və arxa cəbhədə!

Bu dəfə arxa cəbhə 3 "ərazi" sayılırdı:

- Tovuzun sərhəd kəndi Ağdam;
- Ölkə paytaxtı Bakı;
- Bir də sosial şəbəkə.

Ön cəbhədə hər şey aydındır:

Güclü və müasir Ordumuz, yüksək biliyə malik zabitlərimiz, təlim görmüş əsgərlərimiz var!

12 iyulda bir daha bunun şahidi olduq!

Arxa cəbhədə isə vəziyyət həm aydındır, həm də göründüyü qədər sadə deyil!

- Xalq Orduya inanır!
- Ali Baş Komandanına etibar edir və arxalanır!
- Vətənini, müstəqil dövlətini və torpağını qorumağa, yaşından asılı olmayaraq hər an əlinə silah götürüb vuruşmağa daim hazırdır!
- Düşmənə, ondan da çox satqınlara və xəyanətkarlara, "5-ci kolon" üzvlərinə nifrət edir!

Üstəlik müasir Azərbaycan vətəndaşlarının gözü açıqdır: insanlara dilinə görə yox, əməlinə görə qiymət verməyi bacarır.

**Lakin unutmaq olmaz ki, ölkədə sabitliyi pozmağa çalışanlar, düşmən dəyirmanına su tökənlər, müxtəlif radikal ünsürlər də mövcuddur.**

*Biz 90-cı illəri unutmalı deyilik!*

*Biz Azərbaycan Xalq Cəbhəsinin torpaqlarımızı vəzifə ehtiraslarına necə qurban verdiklərini yaddan çıxara bilmərik!*

*Hələ də AXC-dən qalma tör-töküntü, xəyanət və saxtakarlığa adət etmiş Əli Kərimli və anti-Azərbaycan mövqeli Milli Şura və həmin şuranın dövlətin hər çətinliyinə sevinən marginallaşmış üzvləri vardır!*

Onlar və xaricdə oturan həmkarları daim marıqdadırlar, arxadan xalqımıza bıçaq vurmağa məqam gəzirlər!

*Əli Kərimli və ətrafı üçün qrantdan başqa müqəddəs heç nə qalmayıb!*

*Hətta xalqın ən möhtəşəm mənəvi tədbirlərini də murdarcasına öz niyyətlərinə asanlıqla qurban verirlər!*

14 iyulda Bakıda olduğu kimi...

Ordumuz düşməni darmadağın edərək şəhidlərimizin qisasını almış, böyük qələbə qazanmışdı. Xalq qələbənin sevincini yaşamaq, şəhidlərin ruhunu yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Böyük əksəriyyət dövlətə, dövlət başçısına dəstəyini, Orduya məhəbbətini və hərbi əməliyyatlarda iştirak etmək istədiyini nümayiş etdirdi.

Sonra...

*Sonra bu böyük insan axınının içərisindən xəyanətkarlar, öyrədilmiş insanlar, murdar xislətlilər ayrılaraq polisə tabe olmadılar, zorla Milli Məclisə girərək müəyyən dağıntılar törətdilər!*

**Belə möhtəşəm yürüşə ləkə gətirmək olardımı?!**

Doğrudur, polis xəyanətkarların və təxribatçıların bir qismini saxlayıb, qalanları da istintaq yolu ilə müəyyənləşəcək.

Amma hərbi əməliyyatlar başlanan kimi yenə də adları azərbaycanlı olanlar sabitliyi pozmağa, dövlət əleyhinə təxribatlar törətməyə çalışırlar.

Xüsusən təcrübəsiz gəncləri yanıltmağa, öz təsirləri altına salmağa can atırlar.

*Prezident İlham Əliyev belələri haqqında çox dəqiq deyib: "Onlar ermənilərdən də pisdirlər. Erməni açıq düşməndir...*

*Belələri xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yox, düşmənin yanındadırlar".*

Başqa bir məsələ də var:

**Biz vətəndaş olaraq xəyanətkarın, təxribatçının ifşasını yalnız polis və xüsusi xidmət orqanlarının üzərinə atmalı deyilik.**

*Onlar onsuz da daim bu işlə məşğuldurlar.*

*Bəs bizim vətəndaş mövqeyimiz, bəs bizim vətən sevgimiz harda qaldı?!*

Yanımızda kimsə, yaxud tanıdıqlarımızdan biri dövləti maraqlara xəyanət edirsə, "5-ci kolon" funksiyasını yerinə yetirirsə, susub durmalıyıq?

Ya da üzümüzü yana çevirib gediriksə, əslində ona dəstək vermiş olmuruqmu?

Çünki belədə öz əməlini axıradək yerinə yetirməsinə şərait yaradırıq!

Həqiqət belədir ki, hər bir sahədə, hər bir tədbirdə və toplantıda vətənpərvər, sağlam əqidəli insanlar təxribatçılardan və satılmışlardan qat-qat çox olurlar!

**Heç çoxluq da azlıqdan qorxarmı?**

**Çoxluq da azlığın qarşısından qaçarmı?**

*Əslində həmin azlıq çoxluğun təpkisini, hadisələrə operativ və qətiyyətli, prinsipial müdaxiləsini görsə, bir qələt edə bilməz!*

*Qorxar, çəkinər, belələrinin sayı artmaz ki, əskilər!*

**Bəs bu laqeydlik, dönüklərə və təxribatçılara, Vətəni qranta satanlara belə loyallıq haradan, nədən yaranıb?**

**Və haçanacan davam edəcəkdir?**

Biz Azərbaycan gəncliyini fəal görmək istəyirik!

Biz Azərbaycan gənclərini satqınlara qarşı mübariz görmək istəyirik!

- Nə üçün Şəhidlər xiyabanı qarşısındakı çoxluq təxribatçıların qarşısını almadı?
- Nə üçün polis maşınına qalxan əlləri mərd gənclərimiz polisdən qabaq qanıraraq qanuna tabe etmədi?
- Niyə o gözəllikdə yürüşü korlayanların qarşısını elə iştirakçıların özləri almadı?!
- Nə üçün Milli Məclisin şüşə və çilçıraqlarını sındıranların qarşısını vətənpərvər çoxluq polisdən qabaq özü kəsmədi?
- Milli Məclisin təqsiri nə idi?
- Sınan çilçıraq, axı, ali qanunverici orqanın binasını işıqlandırır, düşmən kazarmasını yox!

**Kimin, nəyin qisasını alırsınız və kimdən, hardan!**

Əslində bu mənfur əməl sahibləri Azərbaycan əsgərinin yox, murdar erməninin yanında durduğunu göstərdi.

Bu xuliqanlara, təxribatçılara və satılmışlara laqeyd yanaşanlar isə ən azı mənəvi məsuliyyət daşıyırlar!

Əslində vətəndaş, vətənsevər mövqe nümayiş etdirmədiklərinə görə!

Belə mövqe isə hər zaman gərəkdir və Azərbaycan gəncinə çox yaraşır!

### Biz hər gün, hər dəqiqə ölkəmizin maraqlarını qorumalıyıq

Bu gün dünyanın hansı nöqtəsində nə baş verir, dünyada hansı proseslər gedir cavanından tutmuş qocasınacan hamı dərhal bilir.

Çünki hərənin cibində bir telefon var, bütün günü başını aşağı salıb onu qurdalamaqla məşğuldur.

Hadisələri təhlil etmək üçün ilkin bilgi toplamağa, "politoloq", "siyasi icmalçı", yaxud "hüquq müdafiəçisi" olmağa da ehtiyac yoxdur!

Əslində bunların hamısı gün ərzində sosial şəbəkədədir, hər məsələni pisyaxşı şərh edir, "bilməyənləri" maarifləndirməyə çalışırlar.

Son dövrlərdə sosial şəbəkələr də hərbi əməliyyatların iştirakçısına çevrilib!

Həm də təkcə xəbər çatdırmaq, baş verənlər barədə insanları məlumatlandırmaq mənasında yox!

**Sosial şəbəkədən çox halda rəqib tərəfdə çaşqınlıq və vahimə yaratmaq, hərbi sirr daşıyan informasiyalar toplamaq, dezinformasiya ötürmək niyyətilə istifadə olunur.**

Biz bu halları 2015-ci ildə Ermənistan vertolyotunu vuranda, 2016-cı ilin aprel müharibəsində daha yaxından duyduq və yaşadıq!

Lakin yenə də hamımız lazımi nəticə çıxarmırıq!

Yaxud da çıxarmaq istəmirik!

**Əgər hərbçilərimizin başı döyüşlərə qarışıbsa, arxa cəbhənin sabitliyini və sakitliyini, mümkün təxribatların qarşısının alınmasını biz vətəndaşlar da təmin etməliyik!**

Nə vaxtadək saxta profillərə aldanmalı, satqınların tökdükləri göz yaşlarına inanaraq ruhdan düşməli, düşmənə gərəkli informasiya ötürənlərə dözməliyik?!

Təəssüf ki, bəzən keyliyimizdən düşmənin məkrli informasiyasının, əslində dezinformasiyanın yayıcısına çevrilirik!

**Ağıllanmaq zamanı çatmayıbmı?**

**Bizim aramızda "5-ci kolon" üzvləri, Vətənə xəyanət mövqeyi tutanlar yer almamalıdır və ala da bilməz!**

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu münasibətlə Azərbaycan xalqına müraciətində deyir: *"Gəlin hər dəfə yeni paylaşım edərkən, foto yerləşdirərkən və ya şərh yazarkən unutmayaq ki, biz müharibə şəraitində yaşayırıq və qarşı tərəf informasiya məkanında yayımladığımız hər şeydən istifadə edə bilər. Unutmayaq ki, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında. Unutmayaq ki, bu gün biz bir amalımız olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə".*

❖ ❖ ❖

Ordumuz 12 iyulda öz vəzifəsini sonadək şərəflə yerinə yetirdi!

Tovuz bölgəsində yaşayanlar top atəşinə və təhlükələrə baxmayaraq, dövlətə və orduya inanaraq təşvişə düşmədilər, yerlərindən tərpənmədilər!

Anti-Azərbaycan şəbəkə paytaxt Bakıda sabitliyi pozmağa, insanları çaşdırmağa nail olmadı!

Sosial şəbəkələrdə məqsədli dezinformasiyalar getsə də, Azərbaycan KİV-i və Müdafiə Nazirliyinin Mətbuat xidməti əsl həqiqətləri zamanında insanlara çatdırdı!

**Müharibə davam edir!**

**Mübarizə davam edir!**

**İlham Əliyevin rəhbərliyi ilə xalqımızı yaxın gələcəkdə yeni-yeni uğurlar və qələbələr gözləyir!**

**Bəxtiyar SADIQOV**



## Azərbaycan Respublikasında mətbuata əlavə maliyyə yardımının ayrılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında milli mətbuatın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, özəl teleradio yayımçılarının cəmiyyətin informasiya ehtiyacının ödənilməsi sahəsindəki fəaliyyətinin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək və Azərbaycan milli mətbuatının 145 illik yubileyi ilə əlaqədar tədbirlər təşkil etmək üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 300,0 (üç yüz) min manat ayrılsın.

2. Azərbaycanda fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarının "Azerspace-1" peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasına 3.0 (üç) milyon manat ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2020-ci il*

## Qəbələ rayonunun Əmirvan-Vəndam avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On dörd min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Əmirvan-Vəndam avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 13,1 milyon (on üç milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2020-ci il*

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 890; 2016, № 3, maddə 428, № 11, maddə 1768, № 12, maddə 2016; 2017, № 5, maddə 739; 2018, № 11, maddələr 2187, 2200; 2019, № 1, maddə 29, № 2, maddə 201, № 6, maddə 1005) 2.2-ci maddəsinə "maddələri" sözündən sonra ", tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi ilə əlaqədar yoxlamalara münasibətdə isə həmçinin 26-cı maddəsi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2020-ci il*

## Kütləvi informasiya vasitələri əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Abdullayev Elnur Nazim oğlu
Bayatlı Tamam Fərman qızı
Bayramov Çingiz Cümşüd oğlu
Bayramov Sərvər Umud oğlu
Cürənov Ramiz Mikayıl oğlu
Eminbəyli Şakir Vəfa oğlu
Ələkbərova Cəmilə Aydın qızı
Gülməmmədov Məmməd Bəhruz oğlu
Hacızadə Əli Nizami oğlu
Həmidli Səxavət Nazim oğlu
Həmidov Həmid Oqtay oğlu
Həsənov Həsən Zal oğlu
Həsənov Vasif Ağaəhməd oğlu
Həsənov Vüqar Hüseynəli oğlu
Hüseynov İlqar Məmməd oğlu
Hüseynova Rəfiqə Kamal qızı
İsazadə Fərdin Tacir oğlu
Qasımov Kamran Mürsəl oğlu
Səmədov Əli Vaqif oğlu
Şahbalayev Elşən Şəmsəddin oğlu
Vəzirova Lamiyə Avtandil qızı
Yusifov Tural Bayram oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2020-ci il*

## Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar Mədəniyyət İşçisi"**

Bəybalayev Bəybala Nuhbala oğlu
Əliyev Oqtay Vidadi oğlu

**"Əməkdar Jurnalist"**

Abbasov Azər Arif oğlu
Abbasov Tofiq Möhsün oğlu
Ağayev Şakir Habil oğlu
Ağazadə Aydın Rəhman oğlu
Bağırov Aydın Rövşən oğlu
Cəfərov Zahid İlham oğlu
Eyvazov Elşad Səməndər oğlu
Əliyev Bağır Murtuza oğlu
Əliyev Elşən Əli oğlu
Əliyeva Xatirə İbrahim qızı
Əliyev Vüqar Zifər oğlu
Əsgərov Əhməd Məhəmməd oğlu
Fətullayev Eynulla Emin oğlu
Hacıyev Rəhman Tofiq oğlu
Hadiyeva Yeganə Cəlil qızı
Heydərova Elnarə Valeh qızı
Həmidi Sevinc Vaqif qızı
Həsənov Malik Əliheydər oğlu
Hüseynov Faiq Qismət oğlu
İsmayılbəyli Süleyman Nəbi oğlu
Kərimli Sahil Bəxtiyar oğlu
Kətanov Rabil Məmməd oğlu
Qasımova Tofiqəxanım Fazil qızı
Quliyev Bəhruz Vaqif oğlu
Mehdiyev Allahverdi Məhəmməd oğlu
Məmmədov Vüsal Fəxrəddin oğlu
Məmmədova Mətanət Elmixan qızı
Məmmədova Səadət Həsən qızı
Mirzəbəyli Elçin Əbdülrəhim oğlu
Rəsul-zadə Zaur Lətif oğlu
Rüstəmov İlqar Gülağa oğlu
Seyfullayev Elburus Ramiz oğlu
Seyid Abbas Hüseyn oğlu
Səfərov Hafiz İdris oğlu
Şükürov Anar Rizvan oğlu
Tarıverdiyeva Leyla Cavadovna
Valehov Cəsarət Fikrət oğlu
Vəliyev Akif Abduləzim oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2020-ci il*

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 151-VIQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 151-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyul 2020-ci il*

# Mədəniyyət nazirinin birinci müavini nazirliyin kollektivinə təqdim edilib

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Mədəniyyət nazirinin birinci müavini Anar Kərimovu nazirliyin kollektivinə təqdim edib.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Fərəh Əliyeva çıxış edərək dövlət başçısının iyulun 20-də imzaladığı sərəncamları diqqətə çatdırıb, Anar Kərimovu təyinat münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Bildirib ki, Anar Kərimov məsul vəzifələrdə fəaliyyət göstərib, o cümlədən Azərbaycanın UNESCO-dakı daimi nümayəndəsi vəzifəsində çalışıb. Onun fəaliyyəti, eyni zamanda, mədəniyyət sahəsi ilə sıx bağlı olub. Qeyd edilib ki, Anar Kərimov Azərbaycanın maraqlarının beynəlxalq səviyyədə müdafiə olunması, həmçinin mədəni irsimizin tanınması və təbliği işində fəal iştirak edib, bu sahədə təcrübə, səriştə və idarəçilik bacarığına malikdir.

Dövlət başçısının müvafiq sərəncamına əsasən, Anar Kərimovun, həmçinin Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edəcəyini vurğulayan Fərəh Əliyeva ümidvar olduğunu bildirib ki, o, bu yüksək etimadın öhdəsindən gələcək. Qeyd edib ki, nazirlik sistemində, ayrı-ayrı sahələrdə, o cümlədən yerlərdə uşaq musiqi və incəsənət məktəbləri, kitabxanalar, mədəniyyət evləri, muzeylər və s. müəssisələrin fəaliyyəti ilə bağlı bir müddət əvvəl başlanan islahatlar prosesi davam etdirilməlidir.

Prezident Administrasiyasının şöbə müdiri Anar Kərimova və nazirliyin kollektivinə qarşıda duran vəzifələrin həyata keçirilməsində uğurlar arzulayıb.

Təqdimat mərasimində çıxış edən Anar Kərimov ona göstərilən yüksək etimada görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib. Qeyd edib ki, dövlət başçısının və Mehriban xanım Əliyevanın nazirliyin fəaliyyəti, mədəniyyət sahəsinin inkişaf etdirilməsi, idarə olunması, mədəniyyətimizin təbliği ilə bağlı ona müvafiq tapşırıq və tövsiyələri olub. Gələcək fəaliyyətini bu tapşırıq və tövsiyələr istiqamətində quracağını deyən Anar Kərimov bildirib ki, UNESCO-da çalışdığı 10 ilə yaxın müddətdə Mədəniyyət Nazirliyi ilə fəal əməkdaşlıq edib. Dövlət başçısının islahatlar kursuna uyğun olaraq Mədəniyyət Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi, müvafiq sahələr üzrə, xüsusilə regionlarda mədəniyyət işinin təşkili ilə bağlı islahatlar zəruridir. Bunun üçün bütün sahələr üzrə mövcud vəziyyət təhlil edilməli, müfəssəl araşdırmalar aparılmalı, o cümlədən beynəlxalq təcrübə öyrənilməli və müvafiq təkliflər rəhbərliyə təqdim edilməlidir.

Anar Kərimov qeyd edib ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu gün bütün sahələrdə gənc, peşəkar, vətənsevər kadrlara etimad göstərilir və eyni yanaşma mədəniyyət sektorunda da tətbiq olunmalıdır. Vurğulayıb ki, öz fəaliyyətində hər zaman dörd prinsipi - dövlətçilik, məsuliyyət, şəffaflıq və ədalət prinsiplərini rəhbər tutaraq, gələcək fəaliyyətində bu prinsiplərə riayət edəcək.

Sonda Anar Kərimov birgə səylər göstərməklə nazirliyin kollektivinə uğurlar arzu edib.

## Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri nümayəndələrinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**2-ci dərəcəli**
**"Vətənə xidmətə görə" ordeni ilə**

Ağayev Mir Şahin Mirdilavər oğlu

**3-cü dərəcəli**
**"Vətənə xidmətə görə" ordeni ilə**

İsmayılova Nadejda Vasilyevna
Şıxlinskiy Elçin İsmayıl oğlu

**"Dostluq" ordeni ilə**

Demirel Faruk
Gut Arye
Lapaitis Riçardas

**"Tərəqqi" medalı ilə**

Abbasova Cəmilə Səftər qızı
Abbasova Ətayə Ələmdar qızı
Abdullayev Sənan Məstəli oğlu
Abdullayeva Zümrüd Qurban qızı
Abışova Vüsalə Mahir qızı
Ağayarov Şərif Ziyadxan oğlu
Ağayev Etibar Rafiq oğlu
Albalıyev Şakir Əlif oğlu
Alxaslı Aytəkin Kamil qızı
Baxşiyeva Kəmalə Əliiskəndər qızı
Batıyev Bəhram Əliyaroviç
Canbaxşiyev Səməd Canbağış oğlu
Cavadov Salam Allahverdi oğlu
Cavad-zadə Natiq Əli oğlu
Cəbrayıllı Anar Ləliş oğlu
Cəfərov Rizvan Hilal oğlu
Cəfərov Şahin Cəfər oğlu
Dadaşova Zamirə Sabir qızı
Daşdəmirov Mirsədi Cəlil oğlu
Əfəndiyeva Xavər Mustafa qızı
Əliyev Akif İsmayıl oğlu
Əliyev Azad Akif oğlu
Əliyev Nəsimi Məmməd oğlu
Əliyev Rauf Feyzulla oğlu
Əliyeva Qaliya Sosialovna
Əmrullayev Vüqar Musavəddin oğlu
Əsədova Gülnar Hacıməmməd qızı
Haqverdiyev Vüqar Məmməd oğlu
Həsənov İlqar Musa oğlu
Həsənova Afət Maqsud qızı
Həsənova Səbinə Fazil qızı
Xidirov Nazim Vəli oğlu
İmanov Vüqar Elbrus oğlu
İsabalayeva İlhamə Qismət qızı
İsayeva Ramilə Mayıl qızı
İsmayılov Radik Arzuman oğlu
İsmayılov Rufik Afis oğlu
Kərimli Yusif Sahib oğlu
Qasımov Füzuli İmran oğlu
Quliyev Nüsrət Əli oğlu
Quliyeva Aynur Camal qızı
Quliyeva Nigar Sabir qızı
Quluzadə Kənan Vidadi oğlu
Mayorov Denis Yuryeviç
Mehdiyev Məhəmmədismayıl Əşrəf oğlu
Məhərrəmov Elşən Müslüm oğlu
Mamedov Shakhismail
Məmmədov Tural Əhməd oğlu
Məmmədov Aydın Oqtay oğlu
Məmmədov Elnur Edilman oğlu
Məmmədov Elşən Ağamirzə oğlu
Məmmədova Gülnarə Əmir qızı
Məmmədova Könül Tarix qızı
Məmmədova Səyyarə Səyyaf qızı
Məmmədova Yaqut Əfrasiyab qızı
Mirzəyeva Məhəbbət Bədəl qızı
Mustafayev Mustafa Kamal oğlu
Namazov Elçin Sabir oğlu
Nəzərli Lyudmila Şamilyevna
Ramazanov Qaşqay Ziyəddin oğlu
Rüstəmov Akif Rüstəm oğlu
Rüstəmov Qəhrəman Ənvər oğlu
Sadıqov Məhəmməd Nərman oğlu
Salamov Akif Salam oğlu
Səfərəliyeva Samirə Elxan qızı
Səfərova Samirə Məmmədhənifə qızı
Şükürova Könül Arif qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2020-ci il*

## "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət qurumlarının qarşılıqlı fəaliyyətində səmərəliliyin artırılması və Azərbaycan Respublikasının bu sahədə beynəlxalq öhdəliklərinin icrasının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həmin Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin aidiyyəti dövlət qurumları ilə birlikdə həyata keçirilməsini əlaqələndirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2020-ci il*

## Kütləvi informasiya vasitələrinin nümayəndələrinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Xəlilova Flora Fətula qızı
İsmayılov Dağbəyi Mirzəxan oğlu
Qasımova Tünzalə Yusif qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2020-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı

### 1. Giriş

"Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" (bundan sonra - Milli Fəaliyyət Planı) Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsini və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarını rəhbər tutmaqla, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 667 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin davamı olaraq tərtib edilmiş, insan alverinin insan hüquq və azadlıqlarına ciddi təhlükə yaratdığını, insan hüquqlarını pozduğunu, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olduğunu nəzərə alaraq, insan alverinə qarşı mübarizədə müvafiq qurumların qarşılıqlı fəaliyyətinə imkan verən səmərəli sistemin təmin edilməsi üçün hazırlanmışdır.

### 2. Milli Fəaliyyət Planının məqsədi və həyata keçirilməsinin əsas prinsipləri

2.1. Milli Fəaliyyət Planının məqsədi aşağıdakı istiqamətlərdə həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsidir:

2.1.1. şəxsiyyətin və cəmiyyətin insan alverinin bütün formalarından qorunması, xüsusən qadınların, uşaqların və insan alverinə məruz qala bilən digər həssas əhali qruplarının istismarının qarşısının alınması;

2.1.2. insan alverinin səbəblərinin, insan alverinə şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılması;

2.1.3. şəxslərin insan alveri qurbanına çevrilməsi riskinin azaldılması, insan alverinə məruz qala bilən həssas əhali qruplarının müəyyən edilməsi və sosial müdafiəsinin təmin olunması;

2.1.4. insan alverinin bütün formalarının aşkar edilməsi və qarşısının alınması, habelə nəticələrinin aradan qaldırılması;

2.1.5. insan alveri qurbanlarının müdafiəsi, hüquqlarının bərpası və sosial reabilitasiyasının təmin edilməsi;

2.1.6. insan alveri qurbanlarının və potensial qurbanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün lazımi şərait yaradılması;

2.1.7. insan alveri məqsədilə xarici ölkələrə aparılmış Azərbaycan Respublikası vətəndaşlarının aşkarlanması istiqamətində tədbirlərin həyata keçirilməsi.

2.2. Milli Fəaliyyət Planı qeyd edilən məqsədlərə nail olunması üçün əsas vəzifələri (tədbirləri), onların icra edilməsində müxtəlif qurumların (icra hakimiyyəti orqanları, qeyri-hökumət təşkilatları, beynəlxalq tərəfdaşlar və digər qurumlar) iştirakını, bu qurumların fəaliyyətinin İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator (bundan sonra - Milli Koordinator) tərəfindən əlaqələndirilməsini və insan alverinə qarşı mübarizə sahəsində digər tədbirləri nəzərdə tutur.

2.3. İnsan alverinə qarşı mübarizə aparan bütün qurumlar Milli Fəaliyyət Planı üzrə müəyyən olunmuş tədbirləri aşağıdakı prinsipləri rəhbər tutmaqla həyata keçirirlər:

2.3.1. insan alveri qurbanlarının cəmiyyətdə ayrı-seçkiliyə məruz qalmasının qarşısının alınması;

2.3.2. insan alveri qurbanlarının təhlükəsizliyinin və onlarla nəzakətli rəftarın təmin edilməsi;

2.3.3. insan alverinə görə cəzanın labüdlüyü;

2.3.4. hüquqi, siyasi, sosial-iqtisadi və təşkilati xarakterli profilaktik tədbirlər görülməsi;

2.3.5. insan alverinə qarşı mübarizəyə qeyri-hökumət təşkilatlarının, elm və təhsil müəssisələrinin cəlb edilməsi;

2.3.6. insan alverinə qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi.

### 3. Milli Fəaliyyət Planının maliyyələşdirilməsi

Milli Fəaliyyət Planında göstərilən tədbirlərin icrası üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı qurumlar üçün nəzərdə tutulmuş vəsaitlər, büdcədənkənar vəsaitlər, qrantlar, habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

### 4. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI *(Tədbirlər planı ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz)*

Biz birlikdə güclüyük!

# Azərbaycan çox böyük gücə çevrilib

## Prezident İlham Əliyev işğalçı Ermənistanı döyüş meydanında təkbətək savaşa çağırdı

*Əvvəli 1-ci səh.*



### Ermənistanın sevincinə şərik olan xəyanətkarlar

Hər zaman olduğu kimi, cənab İlham Əliyev yenə də ölkə gündəmində olan mühüm məsələlərə, daxili və xarici siyasətdə baş verən proseslərə aydınlıq gətirərək əsl həqiqətləri ictimaiyyətin diqqətinə çatdırdı və işğalçı Ermənistanın rəhbərliyinə xəbərdarlıq edərək kəskin mesajlar ünvanladı.

Hazırda çətin pandemiya dövründə qlobal böhranın davam etdiyini vurğulayan dövlət başçısı dünyanın 150 ölkəsinin kredit üçün beynəlxalq maliyyə qurumlarına müraciət etdiyini söylədi. Sevindirici haldır ki, Azərbaycan bu siyahıda yoxdur. Çünki dövlətin iqtisadi qüdrəti ölkəmizin öz hesabına yaşamasına imkan verir. Hətta neftin qiymətinin kəskin aşağı düşməsi də bu prosesə təsir göstərmir.

Lakin təəssüflə qeyd etməliyik ki, neftin qiymətinin kəskin ucuzlaşmasına nəinki Ermənistan, hətta ölkəmizdə də sevinən "qüvvələr" var. İşğalçı ölkə hesab edir ki, əgər bu tənəzzül davamlı olarsa, Azərbaycanın gəlirləri azalacaq, ona görə öz xərclərini azaldacaq, lazımi həcmdə silah-sursat ala bilməyəcək və beləliklə, zəifləyəcək, təcavüzkar da bundan faydalanacaq. Yəni Ermənistanın buna sevinməsi təbiidir. Amma başadüşülən deyil ki, buna Azərbaycanın bəzi vətəndaşları, yaxud da ki, özlərini Azərbaycan vətəndaşı sayanlar nədən sevinir?!

Neftin qiymətinin 14 dollara düşməsinə özünü "milli şura" adlandıran, əslində, antimilli qruplaşma kimi fəaliyyət göstərən dəstənin sevinməsi bir daha təsdiq edir ki, onlar Azərbaycanın güclənməsinin deyil, zəifləməsinin tərəfdarıdırlar. Bu da, Prezidentin söylədiyi kimi, müxalifətçilik yox, əsl düşmənçilikdir. Həmin şəxslər Azərbaycanın yenidən doxsanıncı illərin əvvəlindəki çətin duruma qayıtmasını, ölkədə anarxiyanın yaranmasını arzulayırlar. Çünki sivil yolla hakimiyyətə gəlmək, imkanlarının heçə bərabər olduğunu yaxşı anlayırlar. Ancaq başı müsibətlər çəkmiş Azərbaycan xalqı bir daha o dövrə qayıtmamaq üçün həmin antimilli qüvvələrin məkrli niyyətinin baş tutmasına imkan verməyəcəkdir.

### Növbəti erməni təxribatı və ordumuzun uğurlu qisas əməliyyatı

Cənab İlham Əliyev Ermənistanın son təxribatlarına da münasibətini bildirərək vurğuladı ki, bu dəfə də təcavüzkar Ermənistan Tovuz istiqamətində mövqelərimizi, torpaqlarımızın bir hissəsini zəbt etmək üçün namərdcəsinə, qəflətən artilleriya silahlarından hücum təşkil edib.

Bu təxribatın qarşısını alarkən Azərbaycanın igid oğulları qəhrəmancasına savaşaraq şəhidlik zirvəsinə yüksəldilər. Artilleriya atəşi nəticəsində Tovuzun Ağdam kəndinin 76 yaşlı dinc sakininin həlak olması isə bir daha erməni vandalizminin əyani təzahürü oldu.

Lakin Ali Baş Komandanın göstərişi ilə düşmənə Aprel və Günnüt zəfərlərində olduğu kimi, yenə də layiqli cavab verildi. Görülən lazımi tədbirlər, qisas əməliyyatı nəticəsində düşmənin onlarla hərbçisi, texnikası məhv edildi. Azərbaycan Ordusu sərrast atəşlə, dəqiqliklə Ermənistanın dayaq, idarəetmə məntəqələrini və digər hərbi infrastrukturunu məhv etdi.

Təcavüzkarın bu hücumunun qarşısını almaq üçün Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyat həm də bütövlükdə cəmiyyətimizdəki yüksək vətənpərvərlik ab-havasını nümayiş etdirdi. Bunu Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilmiş aksiyalar da təsdiqlədi. Hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, minlərlə insan dövlətə, orduya dəstək göstərdi. Bu gözəl mənzərə vətəndaş həmrəyliyinin bir rəmzi idi.

Ancaq bu həmrəyliyə, milli birliyə xələl gətirmək istəyən antiazərbaycançı qüvvələr, "beşinci kolon" nümayəndələri yenə məkrli niyyətlərini gizlədə bilmədilər. Təəssüflə qeyd etməliyik ki, iyulun 14-ü axşamı paytaxt Bakıda ordumuza dəstək məqsədilə keçirilən yürüşə həmin qüvvələr tərəfindən sonradan siyasi məzmun verməyə, onu nəzarətdən çıxarmağa, neqativ emosiyaların formalaşdırılmasına cəhdlər edildi. Bu təxribat əvvəlki çirkin ssenarilərin tərkib hissəsi idi.

### Xəyanətdə əli olan hər kəs layiqli cəzasını alacaq

Prezident bu təxribata da aydınlıq gətirərək dedi ki, insanların dinc yürüşü, ordumuza dəstək aksiyası zamanı bəzi çirkin ünsürlər, Azərbaycan Xalq Cəbhəsinin üzvləri istifadə edib iğtişaş yaratmağa cəhd etdilər, parlament binasına soxuldular, orada dağıntılar törətdilər:

"Parlament binasının əldə edilmiş qələbə ilə nə bağlantısı var? Bir də ki, bu, qələbədir, bunu hamı etiraf edir. Ermənistan artıq bunu etiraf etməyə məcburdur. Biz bu günlərdə böyük xarici dəstək də görmüşük. Yəni xalqın iradəsi öz yerini tapmışdır, bunu bayram etmək lazımdır. Amma girib parlamentin binasının divarlarını, kabinetlərini dağıtmaq, sökmək nəyə lazım idi?! Üçüncü mərtəbəyə qədər qalxmışdılar. Kabinetlərin qapılarını, şüşələrini sındırırdılar. Sən gəlmisən burada ali qanunvericilik orqanını dağıtmağa? Bunu kim edə bilər? Düşmən, başqa heç kim".

Həqiqətən də, öz xalqına, Vətəninə bağlı olan adamın müharibə gedən bir vaxtda belə təxribata, çirkinliyə əl atması qəbul edilən deyil. Hazırda istintaqın getdiyini söyləyən Prezident həmin prosesin iştirakçılarının və bu xəyanətdə əli olan hər kəsin qanun qarşısında cavab verəcəyini, məsuliyyətdən qaça bilməyəcəklərini diqqətə çatdırdı: "Bir-bir hamısını tapacağıq və bir-bir tapırıq. Son nəfərinə qədər tapıb məsuliyyətə cəlb edəcəyik. Qoy, xalq onları tanısın. Qoy, onların valideynləri utansınlar - onlar kimi böyüdüblər? Hansı manqurtları böyüdüblər? Ona görə ictimaiyyət bunu bilməlidir. Təkcə onlar yox, onların valideynləri də məsuliyyət daşıyırlar. Təbii ki, bu, mənəvi məsuliyyətdir. Amma qoy, valideynləri də utansınlar".

### Səfərbərliyin elan edilməsinə hələ ki, heç bir ehtiyac yoxdur

Dövlət başçısı ordumuza dəstək mitinqində iştirak edən vətəndaşların orduya yazılmaları ilə bağlı müraciətlərə də aydınlıq gətirdi.

Xatırladaq ki, Prezident Nazirlər Kabinetinin son iclasında həmin şəxslərə qeydiyyatda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrinə müraciət etmələri ilə bağlı çağırış etdi. Bu müraciətdən sonra minlərlə gənc orduda xidmət etmək üçün qeydiyyatdan keçdi. Dövlət başçısı bu müraciətdən 1 həftə keçməmiş 50 minə yaxın insanın qeydiyyata alındığını vurğuladı: "Mən bu günlərdə hər gün bəlkə də minlərlə məktub alıram. O məktublarda vətəndaşlar öz dəstəyini ifadə edirlər, həmrəyik ifadə edirlər, mənim çıxışımdan sonra orduda xidmət etmək istəyirlər. Mən demişdim, orada şüşələri qıranlar getsinlər, yazılsınlar orduya. O gün cəmi 150 nəfər könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin məntəqələrinə gəlmişdir. Amma mənim sözlərimdən sonra heç bir həftə keçməyib, artıq əlli minə yaxın insan yazılıb. Əlli minə yaxın Azərbaycan vətəndaşı, - onların mütləq əksəriyyəti gənclərdir, - Vətəni qorumaq üçün artıq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib, öz adlarını, ünvanlarını veriblər. Mən onlara təşəkkür edirəm. Bax, budur Azərbaycan xalqı, budur Azərbaycan gənci. Parlamentin şüşələrini, qapılarını qıran yox. Budur, bu gün Qarabağda ölümə getməyə hazır olan Azərbaycan gənci".

Gənclərə, onların valideynlərinə təşəkkürünü bildirən Prezident dedi ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Ordumuz tam komplektləşdirilib və əgər əlavə canlı qüvvə lazım olarsa, əlbəttə ki, bundan istifadə ediləcək.

Səfərbərliyin elan edilməsinə isə hələ ki, heç bir ehtiyac yoxdur. Əgər lazım gələrsə, bu da olacaq: "Mən demişəm, bir daha demək istəyirəm, - çox da dərinə getmək istəmirəm, - biz bilirik, nə vaxt, necə, nəyi etmək lazımdır. Biz öz siyasətimizdən əl çəkməyəcəyik. Bizim siyasətimiz ədalətli siyasətdir. Bizim siyasətimiz həm beynəlxalq hüquqa, tarixi ədalətə söykənir və biz istədiyimizə nail olacağıq".

### Bütün dayaqlarını itirən Ermənistan dalana dirənir

Ermənistanın bu təxribatından sonra Azərbaycana heç vaxt olmadığı qədər beynəlxalq dəstək göstərildi. Beynəlxalq təşkilatlar, xüsusən də Qoşulmama Hərəkatı, Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı və dost dövlətlər Azərbaycanın haqlı mövqeyini müdafiə edərək Ermənistanın hərbi təxribatını qətiyyətlə pislədilər.

İşğalçı ölkənin tək ümidi isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı idi. Azərbaycan Ordusunun cavab həmləsindən sonra təlaşa düşən işğalçı bu quruma yalvararaq ölkəmizə qarşı bəyanat qəbul etməsini xahiş etdi və rədd cavabı aldı.

Bu məsələlərə də aydınlıq gətirən cənab İlham Əliyev dedi ki, Azərbaycana ilk dəstək hər zaman olduğu kimi, qardaş Türkiyədən gəlib. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan birmənalı şəkildə Azərbaycanı dəstəkləyib və bildirib ki, Azərbaycanın yanındadır. Eyni zamanda bir çox ölkələr fərdi qaydada rəsmi şəxslər səviyyəsində Azərbaycana dəstək göstəriblər.

Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üz tutmasına gəlincə isə Prezident dedi ki, təxribatlar nəticəsində başından güclü zərbə alan təcavüzkar KTMT-yə Azərbaycanı qınayan bəyanat verməsini tələb edib. Yenə də istəkləri baş tutmadı: "Buna nail ola bilmədilər, heç bir bəyanat verilmədi. Sadəcə olaraq, bu hadisə ilə bağlı ümumi sözlərdən ibarət bir şərh verildi, vəssalam. Ancaq bildirməliyəm ki, KTMT-ya 6 ölkə üzvdür. Onlardan üçü beynəlxalq təşkilatlar yolu ilə Azərbaycana dəstək göstərdilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında, eyni zamanda, KTMT-da üzv olan Qazaxıstan və Qırğızıstan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası vasitəsilə bizə dəstək oldular. Belarus Qoşulmama Hərəkatında təmsil olunur. O da Qoşulmama Hərəkatının bəyanatına qoşularaq bizə dəstək oldu. Yəni altı ölkədən üçü Azərbaycanı birmənalı şəkildə dəstəklədi və başqa cür ola bilməzdi. Çünki biz onlarla dostuq, yaxşı günlərdə, çətin günlərdə onlar bizə etibar edə bilərlər".

Cənab İlham Əliyev işğalçı ölkəyə bu təşkilatla bağlı etdiyi çirkin oyunları da xatırladaraq dedi ki, Ermənistanın qorxaq rəhbərliyi qaçıb yardım almaq istədiyi KTMT-ni necə təhqir etdiyini, heç bir başqa ölkə ilə razılaşma aparmadan onun baş katibini həbs elədiyini, Belarus nümayəndəsinin quruma yeni baş katib təyin olunmasının əleyhinə çıxdığını yadına salsın.

Əli hər şeydən üzülən, heç bir dövlət, təşkilat tərəfindən dəstək ala bilməyən Ermənistanın dalana dirəndiyi göz önündədir. Artıq beynəlxalq birlik bu ölkənin təcavüzkar siyasətini qətiyyətlə pisləyir. İndiyədək başqalarının himayəsində olan işğalçı ölkə getdikcə olan, qalan "etibarını" da itirir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev isə bir daha Ermənistanın rəhbərliyinə mesaj göndərərək təkbətək savaşa çağırdı: "Bəs nə oldu, o vaxt KTMT pis idi, sən onu təhqir edirdin, indi qaçıb onun ətəyindən yapışırsan. Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq".

Bütün bu mesajlar, cənab İlham Əliyevin qətiyyətli fikirləri bir daha onu göstərir ki, bu gün Azərbaycan həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm mənfur qonşu ilə mübarizədə çox böyük bir gücə çevrilib: Bunu biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycanın müstəqilliyi, azadlığı, insanların rifahı və ölkəmizin güclənməsi daim diqqət mərkəzində olacaq...

...Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır. Budur mənim siyasətim və bu, siyasətimin bir hissəsidir, o hissəsi ki, bu haqda hələ ki, açıq danışmaq olar".

### İndiyədək şəhid ailələrinə, müharibə əlillərinə 8018 mənzil verilib

Prezident, həmçinin qlobal pandemiya dövründə ölkəmizdə reallaşan sosial layihələrlə bağlı geniş məlumat verərək qeyd etdi ki, dövlət şəhid ailələri, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görür.

Qlobal böhranın iqtisadiyyata mənfi təsirlərinə baxmayaraq bu kateqoriyadan olan vətəndaşlar üçün yeni mənzillər tikilir, onlar avtomobillərlə təmin edilirlər. İndiyədək şəhid ailələrinə və müharibə əlillərinə 8018 mənzil və fərdi ev təqdim olunub. Bu qəbildən olan vətəndaşlarımız təkcə 2019-cu ildə 634 mənzil, 300 fərdi evlə təmin ediliblər. 2020-ci ildə 700 mənzil və 800 fərdi evin verilməsi nəzərdə tutulub. İlin əvvəlindən indiyədək 430 mənzil təqdim olunub. Bu da rekord göstərici hesab olunur. Çünki əvvəlki illərdə şəhid ailələrinə 600-700 mənzil təqdim olunurdu. Pandemiya ilə mübarizə dövründə isə rekord sayda - 1500 mənzil veriləcək.

Məcburi köçkünlərin məişət problemlərinin həllinə gəldikdə isə Prezident dedi ki, bu il bu sahədə də rekord göstərici gözlənilir. Bu il 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək. Bu, bir daha onu göstərir ki, dövlət bu məqsədlər üçün istənilən xərclərə gedir.

2018-ci ildə 265, 2019-cu ildə isə 600 müharibə əlili avtomobillə təmin olunub. Bu dəfə təqdim edilən 50 avtomobil də daxil olmaqla 2020-ci ildə bu qəbildən olan insanlara, ümumilikdə 150 avtomobil verilib. İlin sonunadək isə 400 müharibə əlilinin avtomobillə təmin olunması planlaşdırılır. Bu dəfə verilən 50 avtomobil də daxil olmaqla indiyədək müharibə əlillərinə 6900 avtomobil təqdim olunub.

Göründüyü kimi, Azərbaycanda xüsusi kateqoriyadan olan şəxslər üçün güzəşt və imtiyazların ildən-ilə daha da çoxalması dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Keçən il şəhid ailələrinin müavinəti 20 faiz artırılıb - 250 manatdan 300 manata çatdırılıb. Məcburi köçkünlər üçün müavinətlər 50 faiz artırılıb, bəzi müavinətlər 100 faiz artırılıb. Bu il pandemiya dövründə isə təqribən 5 milyona yaxın insan dövlət tərəfindən maddi dəstəklə əhatə olunub.

Bütün bunlar dövlətin ölkə vətəndaşlarına göstərdiyi diqqətinin əyani təzahürüdür. Qlobal pandemiya ilə mübarizədə öz gücünə arxalanan Azərbaycan həm də böhrandan əziyyət çəkən ölkələrə də yardımlar edir. Bu da, əlbəttə ki, Azərbaycanın qüdrətinin, iqtisadi gücünün bariz təcəssümüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Addım-addım karantindən yumşaldılmaya doğru

## Yoluxma nəzarət edilən formaya düşərsə, bütün Azərbaycan yaşıl zonaya çevriləcək

**Qlobal pandemiya hər ötən an yoluxma sayını artıraraq dünyanı əsarəti altına almaqda davam edir. Hazırda koronavirus infeksiyası karantin rejimləri tətbiq olunmamışdan əvvəlki sürətinə qayıdıb. Dünyada koronavirusa yoluxanların sayı 14,3 milyon nəfəri keçib, pandemiya qurbanlarının ümumi sayı isə 600 mindən çoxdur.**

Demək olar ki, bir müddət əvvəl yumşalmalara gedən əksər ölkələr yenidən SOS siqnalı verərək, infeksiyanın qarşısıalınmaz bir sürətlə yayıldığı barədə xəbərdarlıq edərək və yenidən sərt karantin rejiminin tətbiqinə başlayıblar. O da reallıqdır ki, bütün ölkələrdə tətbiq edilən yumşalmaları insanlar virusun yox olması kimi anlayaraq, normal həyat şərtlərində yaşamağa başlayır, sosial məsafəni unudur, maska istifadəsinə zərurət görmür və pandemiyanın digər tələblərinə əməl etmirlər. Bu isə qısa zamanda COVID-19-un yoluxdurma arealını genişləndirir, aldığı canların sayını artırır.

Koronavirusdan birdəfəlik qurtuluş yolu isə yalnız peyvəndlə mümkün ola bilər. Yarım ildən çox zaman müddətində 23 potensial peyvənd hazırlanıb, amma təəssüf ki, hələlik COVID-19-a qarşı tam dəqiq və keyfiyyətli peyvənd kəşf edilməyib.

### Zamanında alınan düzgün qərarlar

Azərbaycanda da qlobal pandemiya ilə mübarizə davam etdirilir. Dövlətimiz epidemioloji vəziyyəti nəzarətdə saxlamaq üçün demək olar ki, bütün qüvvələrini səfərbər edib. Mərhələli şəkildə koronavirusa qarşı həyata keçirilən effektiv tədbirlər isə öz müsbət nəticəsini verir. Buna görədir ki, hazırda da koronavirusun ilkin mərhələsində olduğu kimi, virusa yoluxanların sayında xeyli azalma, sağalanların sayında isə artım müşahidə olunur. İnfeksiyaya yoluxma ilə bağlı stabilləşməyə isə zamanında atılan qabaqlayıcı addımlar səbəb oldu. Sərt karantin rejiminin tətbiqi virusu nəzarətdə saxlamağa, daha geniş yayılmasının qarşısını almağa imkan verdi. Eyni zamanda səhiyyə sahəsində yaradılan möhkəm maddi-texniki baza, modul tipli xəstəxanaların inşası, müasir laboratoriyaların quraşdırılması xəstəliyin erkən aşkarlanmasına və yoluxan şəxslərin tibb müəssisələrində müalicə almasına şərait yaratdı.

Buna görə də indiyə qədər 20 mindən çox vətəndaşımız sağalaraq evlərinə yola salınıb. Ən ağır, yaşamasına ümid qalmayan xeyli sayda xəstə həyata qaytarılıb. İndiyə qədər virusun erkən aşkarlanması üçün 600 mindən çox test edilib.

Ölkəmizdə yeni növ koronavirusa qarşı əldə olunan nailiyyətlərin əsasında isə vətəndaşların qoyulan qaydalara əməl etməsi durur. Bu bir reallıqdır ki, əhalimizin qaydalara əməl etməsi sayəsində yoluxma sayında sabitləşməyə nail olunub, hətta rəqəmlər müsbətə doğru dəyişib.

### Bakıdan rayonlara getmək imkanı yaradılsa, əldə etdiyimiz nailiyyətləri itirə bilərik

Amma tam qələbə əldə etmək, virusun ayağını vətənimizdən birdəfəlik kəsmək üçün bir az daha dözüm, anlayış, məsuliyyət nümayiş etdirməliyik. Çünki hələ də yoluxma sayı yüksək olan ərazilərimiz mövcuddur.

Buna görə də, Nazirlər Kabineti yanında Operativ Qərargahın verdiyi qərara əsasən, Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Siyəzən və Şəki rayonlarında mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 5 avqustadək sərtləşdirilmiş xüsusi karantin rejimi davam edəcək. Həmçinin xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda həftəsonları bütün ictimai nəqliyyatın hərəkəti dayandırılacaq.

Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib ki, dünyanın bir çox ölkələrində karantin rejimi qalır: "Hətta bir çox ölkələr ikinci dəfə karantinə gedir və Azərbaycan da bu sıradadır. Yaponiya və Honkonq kimi ölkələrdə də yenidən yoluxma artır. İsrail də çimərlikləri açmışdı, yoluxma artdığı üçün karantinə gedir".

Məhz karantin rejiminin tətbiqi sayəsində ölkədə yoluxma coğrafiyası məhdudlaşdırıldı. Bu həssas məqamda sərt karantin rejimi elan olunan ərazilərdən digər şəhər və rayonlara getmək imkanının yaradılması həmin ərazilərdə də koronavirusun yayılmasına gətirib çıxara bilər.

Ş. Mövsümov bununla bağlı söyləyib ki, ilk qapanma dövründə insanlar qanunları pozaraq rayonlara getdilər. Bakıda yumşalma olan zaman rayonlarda yoluxma səviyyəsi artır. Bu gün Bakıdan rayonlara getmək imkanı yaratmaqla əldə etdiyimiz nailiyyətləri itirə bilərik: "Yoluxmanı idarəedilən səviyyəyə çatdırmalıyıq. Ən ideal variantda biz bilməliyik ki, yoluxan insan haradadır və kimdən yoluxub. Bunu bilsək yoluxma nəzarət edilən formaya düşəcək. Buna nail olduqca bütün Azərbaycan sarı, sonra isə yaşıl zonaya düşəcək. Yoluxmanın səviyyəsi nəzarət altına alınarsa, ilk addım da Bakıdan rayonlara gediş-gəlişə icazə vermək olar".

### Növbəti yumşalmalar avqustun 5-dən sonra baş verə bilər

Ş. Mövsümov qeyd edib ki, növbəti yumşalmalar avqustun 5-dən sonra baş verməlidir: "Kafe, mağaza və restoranların açılması da tədricən olacaq, bu, qaçılmazdır. Biz bunu tədricən etməliyik ki, yenidən sərt karantinə getməyək. Burada ən böyük rol vətəndaşların üzərinə düşəcək. Sadə qaydalara riayət etməklə açılmaları tezləşdirə bilərik. İnşallah, bununla da peyvəndin tapılmasına qədər gedə bilərik. Bəli, yumşalmalara gedəcəyik, bu tədricən olacaq".

Göründüyü kimi, normal həyata dönüş, pandemiyadan öncəki yaşama qayıtmaq öz əlimizdədir. Yekdilliklə buna çalışmalı, bu uğurda mübarizə aparmalıyıq. Hələlik çıxış yolumuz COVID-19-un diktə etdiyi tələblərə uyğun yaşamaq və peyvənd tapılana qədər sağlığımızı təhlükəyə atan bu qəddar virusdan qorunaraq ona yoluxmamaqdır.

### Məqsəd insan təmasını azaldaraq yoluxma zəncirini qırmaqdır

Eyni zamanda ictimai nəzarətçiyə çevrilib ətrafımızdakıların da maksimum dövlətimizin qoyduğu tələblərə əməl etməsinə nail olmalıyıq. Rastlaşdığımız qanun pozuntuları ilə bağlı mütləq aidiyyəti üzrə məlumat verməliyik. Kütləvi yerlərdə, xüsusilə yas mərasimlərində iştirakdan çəkinməliyik. Çünki ölkəmizdə bu mərasimlər zamanı yoluxmaların çox olduğu da faktdır.

Təbii ki, heç kəs karantin rejiminin tətbiqindən, doğmaları ilə birgə şadlıq etməməkdən, əzizlərinin yas mərasimində iştirak etməməkdən, istirahət etməməkdən və s. məmnun deyil. Amma dünyanın hər yerində koronavirusun yaratdığı təhlükəli vəziyyət bunu tələb edir.

Dövlətimiz tərəfindən də bu istiqamətdə atılan bütün addımlar, görülən tədbirlər, tətbiq olunan karantin rejimləri maksimum insan təmasını azaltmaq və bu sayədə virusun ölüm zəncirini qıraraq təhlükəsizliyimizin, sağlamlığımızın qorunması məqsədini daşıyır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirusdan daha 504 nəfər sağalıb, 391 yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 504 nəfər sağalıb, 391 yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 28 min 633 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 20 min 443 nəfər müalicə olunaraq sağalıb, 385 nəfər vəfat edib. Aktiv xəstə sayı 7805 nəfərdir. Ötən müddət ərzində 649 min 953 test aparılıb. Dünənki test sayı isə 8221-dir.



# Ağdamın işğalından 27 il keçir

**Ağdam deyəndə göz önünə cənnət-misalı Qarabağ gəlir - qartalların qıy vurduğu, başı qarlı uca dağlar, durnagözlü bulaqlar, qayalara çırpıla-çırpıla üzü arana can atan dəlisov çaylar, nəğməkar şəlalələr, gül-çiçəkli yamaclar, yaşıl ormanlar...**



## “Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz”

...Poetik-lirik lövhələrlə Qarabağı, o cümlədən onun ürəyi hesab olunan Ağdamın firavan günlərindən çox yazılıb. Hüsnünə dastanlar qoşulub, mahnılar bəstələnib. Qarabağda doğulan körpələr muğamla, segahla dil açıb, nəğməkar, bəstəkar... olublar.

Bu gün isə, daha doğrusu, 27 ildir ki, o bəxtəvərlikdən və xoşbəxtlikdən yox, Qarabağın taleyinə yazılan əsirlik, girovluq, qarabağlıların həsrətli baxışlarından danışılır, yazılır.

Qarabağ, o cümlədən Ağdam haqqında illər öncə Ümummilli Lider Heydər Əliyevin söylədiyi fikir bütün zamanlarda aktual olacaq: “Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz”.

Əlbəttə, Azərbaycana canı-qanı ilə bağlı olan Ulu Öndərin bu müdrik fikri, verdiyi qiymət heç də yalnız o yerlərin əsrarəngiz təbiəti ilə bağlı deyildi. Tarix yaradan şəxsiyyət Qarabağa, Ağdama həm də Vətən, xalq üçün yetişdirdiyi layiqli övladlarına görə yüksək dəyər verirdi.

### Günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev - Ağdam

Ağdam ilk yaşayış məskəni kimi eramızdan əvvəl birinci minillikdə yaranıb. “Ağdam” sözü qədim türk dilində “kiçik qala” deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. Zaman keçdikcə bu şəhərin adının mənası dəyişib. XVIII əsrin birinci yarısında qarabağlı Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr verib. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün nümunəyə çevrilib. Bu mənada “Ağdam” günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev deməkdir.

Ağdam inzibati rayonu isə sovetləşmə dövründə, konkret olaraq 1930-cu ildə yaradılıb. Sahəsi 1094 kvadrat kilometr olan rayonun coğrafi relyefi əsasən düzənlik, qismən dağlıqdır. Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində - Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir.

1988-ci ilin son aylarında Ermənistandan öz ata-baba yurdlarından, daha sonra Dağlıq Qarabağ Muxtar Vilayətindəki doğma, isti ocaqlarından silah gücünə, amansızcasına, vəhşiliklə qovulub didərgin salınan on minlərlə azərbaycanlı məhz Ağdam rayonuna pənah gətirmişdi.

1992-ci ildə Dağlıq Qarabağı bütünlüklə işğal edən Ermənistan sovet qoşunlarının dəstəyi ilə ətraf rayonlara da hücum etdi. Xüsusən Ağdama olan hücumların ardı-arası kəsilmədi. 1993-cü il may ayının 11-dən etibarən şiddətlənən hərtərəfli hücum və təcavüz iyul ayının 23-də Ağdamın süqutu ilə başa çatdı.

Şücaətlə döyüşən ağdamlıların və Ağdam uğrunda şəhid olan Vətən övladlarının ruhu da o gün əsir düşdü, girov qaldı. Neçə-neçə böyük sənətkarı, elm-mədəniyyət xadimlərini yetişdirən torpağın bir hissəsi yağı caynağına keçdi.

### Ağdamın qara günlərinin kulminasiyası

1994-cü il mayın 12-dək davam edən hərbi təcavüz nəticəsində ermənilər Ağdam rayonunun 846,7 kvadrat kilometr, yəni ümumi ərazisinin 77,4 faizini işğal etdilər. Ağdam şəhəri və 87 kənd vəhşiliklə darmadağın edildi. Müdafiəsində 5 min nəfərdən çox şəhid və əlil olan, minlərlə insanın fiziki şikəstlik qazandığı Ağdamın 120 min nəfərdən çox əhalisi isə öz doğma ev-eşiyindən qovularaq məcburi köçkünə çevrildi.







Qarabağın ağ imarətli Ağdamının qara günlərinin kulminasiyası: 1993-cü il, 23 iyul tarixi! Qarabağın zümrüd tacı, Qafqazın Konservatoriyası sayılan Şuşa, qartallar yuvası, laçınlar oylağı Laçın, ardınca Qarabağın qala qapısı Kəlbəcər Ermənistanın məkrli, çirkin, təcavüzkar siyasəti nəticəsində işğala məruz qalandan sonra hədəf Ağdam idi. Təklənsələr də, ağdamlılar doğma yurdun sipərinə çevrilmişdilər - düşmənlə canlı sədd yaratsalar da, yağılar “arxalı köpək” kimi quduzlaşmışdı. Təəssüf ki, o ağır günlərdə baş verən siyasi hadisələr Qarabağı və onun övladlarını taleyin ümidinə qoymuşdu...

Nankor ermənilər havadarlarının köməyi ilə Ağdamı odlara qalayıb viran qoymaq üçün bu fürsətdən istifadə etdi. Həmin tarix ağdamlıları Ağdamsız, Azərbaycanı Qarabağsız qoydu. Ərazisinin dörddəüç hissəsi işğal olunan Ağdam rayonunun əhalisi respublikanın əksər bölgələrinə səpələndi, uzun illər ağır şəraitdə, çadırlarda, yük vaqonlarında yaşamağa məhkum oldular.

Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə hakimiyyətə gələrkən ölkədə bir dənə də olsun çadır şəhərciyinin qalmayacağını söylədi. Qarşıda duran mühüm problemlərin həllinin vacibliyini qeyd edən dövlət başçısının qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün həyata keçirdiyi çox mühüm və təxirəsalınmaz tədbirlərdən ağdamlı məcburi köçkünlərə də pay düşdü: Ağdam ərazisində hər cür infrastruktura malik 18 yeni qəsəbə salındıqdan sonra ölkənin, demək olar ki, əksər bölgələrində müvəqqəti məskunlaşan ağdamlı məcburi köçkün ailələri öz dövlətinə və Prezidentinə minnətdarlıq hissi ilə doğma rayona, rahat, geniş və işıqlı mənzillərə köçdülər. Məhz bu qayğının nəticəsidir ki, Ağdam rayonu ərazisində 100 min nəfərə yaxın ağdamlı yaşayır, yurd həsrəti çəkmədən.

### Burada sənət də var, sənəkarlıq da

Azərbaycanın özü qədər qədim tarixə malik Qarabağın yüz illərlə formalaşmış özünəməxsus simvolları az deyil. Bərəkətli torpağı, zəngin və halal süfrəsi, tarixi-mədəni simvollar sırasında musiqi, xalçaçılıq və atçılıq Ağdam üçün xüsusilə xarakterikdir.

Dövlət başçısının bütün bölgələrə səfərləri tarixə, yaddaşlara yazılacaq qədər əhəmiyyət daşıyır. Çünki bu səfərlər həmin bölgələrin sosial-mədəni inkişafına güclü təkan verir. 2018-ci ilin payızında Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Ağdam rayonuna növbəti və tarixi bir səfəri də yadda qaldı. Əslində, bu qədim diyar Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu hər iki dövrdə daim dövlət qayğısı görüb, ağdamlılar bunu heç vaxt unutmayıb. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin növbəti tarixi səfəri bəzi vacib məqamları ilə yaddaşa yazıldı.

Təbii ki, Qarabağın, o cümlədən Ağdamın rəmzi, şöhrət simvollarından biri, bəlkə də birincisi musiqidir. O da gizli deyil ki, Ağdam Azərbaycanın musiqi mədəniyyəti tarixinə dünya şöhrətli görkəmli sənətkarlar verib. Bu ulu məkanda doğulub boya-başa çatan mədəniyyət və incəsənət korifeyləri, musiqiçilər, o cümlədən görkəmli muğam ustadları da dillərdə dastandır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağdamın hazırda mərkəzi sayılan Quzanlı qəsəbəsində milli memarlıq ənənələrini özündə əks etdirən möhtəşəm Muğam Mərkəzinin tikilərək sənətsevərlərin istifadəsinə verilməsi rayonun mədəni həyatında son dərəcə əlamətdar bir hadisəyə çevrildi.

Qarabağın dilboz atlarının şöhrəti tarixən Avropanı fəth edib. Təəssüf ki, Ermənistanın işğalçılıq siyasəti Ağdam Atçılıq Zavoduna da məcburi köçkünlük həyatı yaşatmışdı. Dövlət başçısının imzaladığı sərəncamlar əsasında “Qarabağ Atçılıq Təsərrüfatı” MMC üçün 35 hektardan artıq ərazidə müasir tələblərə cavab verən Qarabağ Atçılıq Kompleksinin tikilməsi, əlbəttə, bu sahəyə qayğının bariz nümunəsidir.

Qarabağın şöhrət simvollarından biri də xalçaçılıqdır ki, bu uludan-ulu sənət Azərbaycan milli mədəniyyətinə töhfə verməkdədir. Onun qorunub saxlanılması, inkişaf etdirilməsi üçün dövlət zəruri qayğını əsirgəmir. Dövlət başçısının təşəbbüsü ilə “Azərxalça” ASC-nin Ağdam filialının burada fəaliyyət göstərməsi də təsadüfi deyil. Bu, ilk növbədə 150 nəfərdən artıq xalçaçılıqla məşğul olanlar üçün yeni iş yerləri deməkdir.

***

*...Bu gün də işğalçı Ermənistan Azərbaycan sərhədlərini təxribatla pozmaqda, Tovuz rayonu ərasində dinc əhalini hədəf seçməkdədir. 1992-1993-cü illərdən fərqli olaraq bu gün təcavüzkarın uğursuzluqla qarşılaşması Azərbaycan Ordusunun və xalqının hakimiyyətlə bir cəbhədə olmasını təsdiqləyir. Bu isə o deməkdir ki, Ermənistan işğal altında saxladığı Azərbaycan ərazilərində duruş gətirə bilməyəcək. Uzaqda olmayan o gün, bütünlüklə qarabağlılar, o cümlədən ağdamlılar üçün əsl qələbəyə çevriləcək. Qarabağdan yenə də könülləri oxşayan musiqi sədaları Şuşaya, Laçına, Kəlbəcərə, işğal altında qalan digər torpaqlara da yayılacaq...*

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Tovuzun Ağdam kəndinin sakinləri əsl fədakarlıq göstərirlər

**Keçirdiyimiz hər gün tarixə dönür. Tarixə yazılan günlərin isə hamısı yaddaqalan olmur. Elə günlər var unudulur, elələri də var ki, heç vaxt yaddan çıxmır. Unudulmayan günləri isə tarixə yazan qəhrəmanlarımız, daha doğrusu şəhidlərimizdir. Çünki bu dünyada hamımıza bəxş olunan bir ömür payı var. Müəyyən vaxtdan sonra onu başa vuracağıq. Lakin şəhidlər onlara bəxş olunan ömrü başa vurmurlar. Onlar mənsub olduqları millətin qəlbinə həkk olunaraq əbədi yaşayırlar.**



Vətənpərvərlik qəhrəmanlığa yol açan əsas amildir. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etmişik. Onların göstərdikləri fədakarlıqlar bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan çoxlu sayda igidlər yetişdirmişdir. 1988-ci ildən başlayan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsində erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı məhz buna nümunədir. Torpaqlarımızın bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıqlar göstərərək şəhid olan yüzlərlə soydaşımızın adı bu gün də hörmətlə çəkilir, onların ruhu qarşısında ehtiram göstərilir.

Tarix çox müharibələrin, ölkələrin viran qalmasının, saysız-hesabsız insanların həlak olmasının şahidi olub. Lakin bəşəriyyət zaman-zaman erməni təcavüzkarlarının azərbaycanlılara qarşı törətdikləri vəhşilik səviyyəsində ikinci bir faktla qarşılaşmayıb. Bu faciələr xüsusilə ötən əsrin 90-cı ilinin əvvəllərində ölkəmizdə hakimiyyətsizlik hökm sürəndə daha çox törədildi. Yaranmış vəziyyətdən istifadə edən ermənilər torpaqlarımızın 20 faizini öz havadarlarının köməyi ilə işğal etdilər. Onlar xalqın gözünü qorxutmaq üçün Xocalı soyqırımı törətdilər. Lakin Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra xalqımıza qarşı törədilən qırğınlar dayandı. Ulu Öndərin təşəbbüsü ilə atəşkəs əldə olundu. Bundan sonra xalq rahat nəfəs almağa başladı. Qısa vaxt ərzində iqtisadiyyat yüksəldi. Ordumuz formalaşıb sürətlə inkişaf etməyə başladı. Prezident İlham Əliyevin fədakarlığı və uzaqgörən siyasəti nəticəsində ordumuz dünyanın ən güclü orduları siyahısında özünə yer aldı. İndi Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizi düşməndən azad etmək üçün bütün imkanlara malikdir. Bu imkanları biz 2016-cı ildə Aprel döyüşlərində bir daha yəqin etdik. Cəmi 4 gün davam edən döyüşlər çox söz dedi. Xalqımız həsrətlə gözlədiyi qələbənin sevincini hiss etdi. Bu qələbə insanların Ali Baş Komandana, ölkənin Silahlı Qüvvələrinə olan inamını, etibarını daha da artırdı.








Ordumuzun ermənilər üzərində növbəti qələbəsi isə bu il davam etdirildi. Məlum olduğu kimi, 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələri növbəti dəfə atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücuma keçdilər. Azərbaycan Ordusunun həyata keçirdiyi əks-tədbirlər nəticəsində düşmən öz yerində otuzdurulmaqla onun canlı qüvvəsinə və hərbi texnikasına ciddi zərər yetirildi. Təəssüflər olsun ki, bu döyüşlərdə Azərbaycan tərəfi də itkilər verdi. Düşmənin atdığı mərmilər bir neçə tikiliyə ziyan vurdu. Bir nəfər mülki vətəndaş həlak oldu. Hazırda Azərbaycanın Silahlı Qüvvələri bölgədə vəziyyətə nəzarət edir, yeri gəldikcə Ermənistanın təxribatlarına qətiyyətlə cavab verir.

İndi Tovuzun sərhəd kəndlərində arabir atılan mərmi və güllələri nəzərə almasaq, nisbi sakitlikdir. İnsanlar gündəlik məişət qayğıları ilə məşğuldurlar. Əsasən əkin-biçin, eləcə də heyvandarlıqla məşğul olan sakinlər düşmənin törətdiyi təxribatlardan qətiyyən qorxmurlar. Tovuz Rayon İcra Hakimiyyətinin Ağdam kənd icra nümayəndəsi ilə söhbətimizdə də bunun şahidi olduq. İcra nümayəndəsi Həqiqət Məmmədova dedi ki, kənd camaatı artıq güllə səsinə alışıb. Uşaqdan böyüyə hamı ermənilərin xislətini yaxşı bilir. Odur ki, atışma başlayandan bir nəfər də olsun kəndi tərk etməyib. Hamı imkan düşdükcə əkin-biçin işləri ilə, yetişdirdikləri məhsulun yığımı ilə məşğul olur.

Ağdam kəndi Tovuzun səfalı bir ərazisində yerləşir. Hər tərəfdən yaşıl dağ yamacları ilə əhatə olunmuş kəndə dövlətin qayğısı ilə asfalt yol çəkilmişdir. Rayon mərkəzindən o qədər də uzaqda olmayan kəndə marşrut avtobusu işləyir. Kənddə 180 yerlik məktəb, 60 yerlik uşaq bağçası fəaliyyət göstərir. Burada poçt və mədəniyyət evi də sakinlərin ixtiyarındadır. Həddindən artıq işgüzar olan kənd camaatı dolanışığını əsasən torpaqdan çıxarır. Söhbət zamanı icra nümayəndəsi onu da əlavə etdi ki, Ermənistanla sərhədin o tayında yerləşən erməni kəndlərində həyat ölü vəziyyətindədir. Əlbəttə, bütün bu uğurlarımızı görən ermənilər söz yox ki, paxıllıq çəkir və olanlarımızı dağıtmaq istəyir.

Təxribat zamanı Ermənistan ordusunun öz mövqelərindən Ağdam kəndinə artilleriya qurğusundan atdığı D-30 topu və 120 mm-lik minaatanların mərmiləri yaşayış məntəqələrinə yaxın ərazilərə düşüb. Top mərmilərindən ayrılan qəlpələr bir neçə evin dam örtüyünə ziyan vurub. Hətta minalardan biri 76 yaşlı kənd sakini Əziz Əzizovun həlak olması ilə nəticələnib. İkinci mina isə Ermənistan ordusunun mövqeyinə yaxın ərazidə yerləşən Minayə Qasımovanın evinə düşərək evin bir hissəsini uçurub. Xoşbəxtlikdən evdə insan tələfatı olmayıb. 4 övladı və 7 nəvəsi olan Əziz Əzizov isə övladlarının xəbərdarlığına baxmayaraq, yaşadığı evi tərk etmədi. Keçmiş döyüşçü olaraq el-obasının, ordunun yanında olmağı özünə borc bildi və sevdiyi torpaq uğrunda canını fəda verdi.

Ağdam kənd sakini Məmməd Novruzov deyir ki, iyulun 12-də günorta saatlarında ermənilər kəndi atəşə tutdular. Elə bildik ki, bu, onların növbəti təxribatıdır. Atışmanın şiddətlənməsindən sonra başa düşdük ki, bu, adi günlərdəki güllə səsləri deyil. Azərbaycan Ordusu cavab atəşi ilə düşmənə elə bir divan tutdu ki... İndi ermənilərin səsi batıb. Onlar varlıqlarını sübut etmək üçün arabir iriçaplı silahlardan atəş açırlar ki, bu da kənd sakinlərini qətiyyən qorxutmur.

Söhbət zamanı Məmməd Novruzov dedi ki, 70 sota yaxın əkin sahəsi var. Orada kartof, lobya, pomidor-xiyar və digər bostan bitkiləri əkir. İndi məhsulun yığım vaxtıdır. Var olsun ordumuzu. Ona arxalanıb hər gün sahələrə çıxır, qış azuqəsinin ehtiyatını tuturuq. Artıq qalan məhsulumuzun bir hissəsini də aparıb Tovuz bazarında satırıq.

Məmməd Novruzovun 3 oğlu, 1 qızı var. Oğlunun biri - Səmiyəddin Novruzov Milli Orduda xidmət edir. Qızı Nuranəni köçürüb. O da ailəsi ilə birlikdə Ağdam kəndində yaşayır.

Dağlıq Qarabağ müharibəsi başlayandan Tovuzun Ağdam kəndi də onlarla şəhid verib. Onlardan biri - Yusifov Naiq Nəsir oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Naiqin ata-anası hazırda kənddə yaşayır. Hər ikisi təqaüddədir. Evləri Azərbaycan-Ermənistan sərhədinin, necə deyərlər, iki addımlığındadır. Milli Qəhrəmanın atası Nəsir və anası Xədicə Yusifovlar atışma başlayandan evdən kənara çıxmayıblar. Söhbət zamanı bildirdilər ki, kənd sakinləri necə, biz də elə. Biz dünya görmüş adamlarıq. İtiriləsi heç nəyimiz yoxdur. Sağ olsun dövlət başçımızı. Bilirik ki, o, gecə-gündüz işğal olunmuş torpaqlarımızın azad olunması üçün yollar axtarır. Əminik ki, geç-tez ədalət öz yerini tapacaq. Düşmən tapdağı altında olan 20 faiz torpaqlarımız Ali Baş Komandanın iradəsi və siyasi fəaliyyəti ilə azad olunacaq. Onda oğlumuz Naiqin ruhu da şad olacaq.

Kənd sakini Sübhan Hacıyev də təsərrüfat işləri ilə məşğuldur. 2 qızı, 1 oğlu var. Deyir ki, düşmənin atdığı mərmilərdən qətiyyən qorxmurlar. Camaat Azərbaycan Ordusunun əsgər və zabitlərinə inanır. Bilir ki, onları qoruyan Azərbaycan Ordusu var. Odur ki, əkin-biçinlə məşğuldur. Həyətində iki inəyi, bir neçə qoyunu var, toyuq-cücə də saxlayır. Deyir ki, mənfur düşmən tez-tez atəşkəsi pozmasa, günləri-güzəranları yaxşı keçir. Ancaq bilirlər ki, pis günün ömrü az olduğu kimi, bu çətinliyin də ömrü az olacaq. Əgər danışıqlar yolu ilə müharibəyə son qoyulmasa, Azərbaycanın güclü ordusu erməniləri yerində oturtmağı bacaracaq. Bu haqq işində Sübhan kişi də Ali Baş Komandanın əmri ilə döyüşlərə atılmağa hazır olduğunu bildirdi.

Eldar Məmmədov keçən əsrin 90-cı illərində Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edib. Onlarla erməni əsgərini məhv edib. Deyir ki, lazım gəlsə, Ali Baş Komandanın bir əmri ilə yenidən vuruşmağa hazırdır. Ancaq ölkə rəhbəri hələlik səfərbərliyə ehtiyac duymur. Çünki Azərbaycanın yüksək döyüş qabiliyyətli ordusu, eləcə də ən müasir hərbi texnikası var. İstənilən vaxt mənfur düşməni torpaqlarımızdan qova bilərik.

İndi bölgədə, o cümlədən Tovuzun Ağdam kəndində nisbi sakitlikdir. Azərbaycan Ordusu ermənilərə layiqli cavab verdikdən sonra onlar hələ özlərinə gələ bilməyiblər. Belə bir dövrdə sərhəd kəndlərində yaşayan sakinlər bir qədər nəfəs alır, gündəlik işləri ilə məşğul olurlar. Bilirlər ki, döyüşlər yenidən başlasa, onları qoruyacaq güclü ordumuz var. Ölümün gözlərinə dik baxan bu insanlar həqiqətən cəsur, vətənpərvər və fədakardırlar. Vətən uğrunda şəhid olmağı da özlərinin müqəddəs borcları hesab edirlər. Kənddə kiminlə söhbət etdiksə, “Şəhid verməyən xalqın mənliyi olmaz” - dedi. Bizim xalqımız Vətəninə, torpağına bağlı qəhrəmanlar yetişdirən xalqdır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***





# Saxta erməni təbliğatı bütün dünyada fiaskoya uğrayır

## ABŞ Konqresində ilk dəfə olaraq Ermənistan əleyhinə düzəlişlər qəbul edilib

*Əvvəli 1-ci səh.*

Bununla yanaşı erməni lobbisinin səylərinə baxmayaraq, iclas zamanı Kaliforniya ştatını təmsil edən qatı ermənipərəst konqresmen Brəd Şerman və erməni əsilli Cəki Spiir tərəfindən Azərbaycan əleyhinə təklif olunan düzəlişlər qəbul edilməyib. Bu uğursuzluq erməni lobbisinin və xüsusilə də Daşnak partiyasını təmsil edən Amerikanın Erməni Milli Komitəsinin (ANCA) ciddi çaşqınlığına və məyusluğuna səbəb olub. Ermənipərəst Konqres üzvlərinin Azərbaycan əleyhinə irəli sürdüyü düzəlişlərə dəstək üçün erməni lobbisinin bütün qüvvələrinin, hətta son dəqiqədə milyonlarla izləyicisi olan erməni əsilli "tanınmış simaların" səfərbər olunmasına baxmayaraq, sözügedən düzəlişlərin qəbul edilməməsi erməni tərəfində ciddi narahatlığa səbəb olub. Ermənilərə bu işdə ermənipərəst mövqeyi ilə seçilən Qaydalar Haqqında Komitənin sədrinin dəstək göstərməməsi də ermənilər arasında əlavə gərginliyə və narazılığa səbəb olub.



Azərbaycan tərəfinin bu əhəmiyyətli uğuru ilə barışmaq istəməyən və məğlubiyyətini ört-basdır etməyə çalışan ANCA çoxsaylı erməni diasporunun narazılığının qarşısını almaq və vəsait toplamaq fəaliyyətini davam etdirmək məqsədilə həyasızcasına Azərbaycana heç bir aidiyyəti olmayan, komitədə qəbul edilmiş ümumi mövzuda bir başqa düzəlişi özünün uğuru kimi təqdim etməyə və ictimaiyyəti yanlış məcraya yönəltməyə cəhd edib. Lakin fakt faktlığında qalır ki, ABŞ Konqresi erməni diasporuna və erməni yalanlarına böyük zərbə vurub.

### Heç bir dövlət və təşkilat Yerevanı müdafiə etmədi

Ermənistanın dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi təxribatlar zamanı Azərbaycan Ordusu növbəti dəfə qəhramanlıq dastanı yazdı. Ordumuzun bölmələri düşmənin hücumunun qarşısını dərhal almaqla, hərb tariximizin yeni şanlı səhifəsini yazdılar. Bu hadisə vaxtı Azərbaycan cəmiyyətinin nümayiş etdirdiyi milli birlik və vətənpərvərlik, habelə səfərbərlik çağırışları göstərdi ki, xalqımız ərazi bütövlüyünün pozulması faktı ilə heç vaxt barışmayacaq.

Ümumiyyətlə, erməni silahlı birləşmələrinin son təxribatları bütün dünyaya bir daha aydın şəkildə göstərdi ki, Ermənistan işğalçı və təcavüzkar siyasət yürüdən dövlətdir. Ən azından hərbi əməliyyatların Azərbaycan ərazilərində getməsi kimin işğalçı və kimin işğala məruz qalmasının aydın təsdiqidir. Ermənistanın beynəlxalq hüququn sərhədlərin toxunulmazlığı prinsipini kobul şəkildə tapdalamasına baxmayaraq Avropa təşkilatları və ATƏT-in Minsk qrupunun həmsədrləri bu dəfə də şablon bəyanatlarla kifayətlənərək tərəfləri atəşkəsə əməl etməyə çağırdılar.

Bununla belə, dünyanın heç bir dövləti, təşkilatı, bir nəfər də olsun siyasətçi bu hadisələr zamanı Ermənistanı açıq şəkildə dəstəkləyən fikir səsləndirmədi. Ermənistanın üzvü olduğu Kollektiv Təhlükəsizlik Müdafiə Təşkilatı isə nəinki Yerevanın müdafiəsinə qalxmadı, ümumiyyətlə baş vermiş hadisəni müzakirəyə belə çıxarmadı. Ermənistan öz zəifliyinin təsdiqi olaraq iyul ayının 12-də sərhəddə təxribatı törədən kimi KTMT-yə müraciət etmişdi. Amma üstündən 10 gün keçsə də, təşkilatın heç bir rəsmisi bu müraciətə münasibət bildirməyib. Əslində bunun özü ilk növbədə onu göstərir ki, Ermənistanın işğalçılıq siyasəti KTMT üzvü olan digər dövlətlərə məlumdur. İkincisi, KTMT üzvləri Ermənistanın asılı dövlət olmasını, müstəqil siyasət yürüdə bilməməsini qəbul etdikləri üçün onun müraciətinə münasibət bildirməyə lüzum da görmürlər. Üçüncüsü isə, Paşinyanın hələ müxalifətdə olarkən Ermənistanın KTMT-dən çıxmasını tələb etməsini, baş nazir vəzifəsinə gəldikdən sonra isə təşkilatın baş katibini həbsə atmasını digər üzvlər onun bu quruma mənfi münasibəti kimi dəyərləndirirlər. Elə buna görə də Paşinyanın müraciəti cavabsız qaldı.

Bu məsələdə ən mühüm rolu isə KTMT üzvlərinin Azərbaycanla dostluq münasibətləri oynadı. Hətta Paşinyan Minskə səfər edərək dövlət başçılarından ayaqüstü dəstək almağa çalışsa da, istədiyinə nail ola bilmədi.

### İlham ƏLİYEV: "Budur bizə göstərilən beynəlxalq dəstək"

Azərbaycana gəldikdə isə vəziyyət fərqlidir. Azərbaycanın dostları, müttəfiqləri açıq şəkildə ölkəmizin müdafiəsinə qalxdılar. Ermənistanın sərhəddəki təxribatı ilə bağlı ölkəmizə ən böyük dəstək Türkiyədən gəldi. Bu ölkənin siyasi və hərbi rəhbərliyi birmənalı və qəti şəkildə, həm də sərt üslubda Azərbaycanı dəstəkləyən bəyanatlar verdilər.

Həmin günlərdə Azərbaycana daha bir qətiyyətli dəstək Pakistan dövlətindən gəldi. Eyni zamanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, 57 dövlətin birləşdiyi İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatlar verdilər. Bu sırada Ukrayna və Moldova dövlətlərinin də mövqeyi təqdirəlayiqdir. "Ukrayna tərəfi münaqişənin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət əsasında siyasi yolla həll olunmasının tərəfdarıdır" - deyə Ukrayna Xarici İşlər Nazirliyinin rəsmi bəyanatında deyilir.

"Moldova Respublikası münaqişəli vəziyyətin Azərbaycan Respublikasının suverenliyinə və beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə hörmət əsasında dinc yolla nizamlanmasının tərəfdarıdır". Bu fikir isə Moldovanın Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin bəyanatında yer alır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Ermənistanın hərbi təxribatı ilə bağlı beynəlxalq təşkilatların və dünya ölkələrinin reaksiyasına dair fikirlərini bildirərək deyib: "Budur bizə göstərilən beynəlxalq dəstək. Qeyd etdiyim kimi, digər ölkələr, bəzi Avropa ölkələri öz rəsmi nümayəndələri vasitəsilə Azərbaycana dəstək ifadə etdilər. İndi baxın, görün Ermənistana kim dəstək göstərdi? Görməmişəm. Burada da təcrid vəziyyətindədir. Çünki hamı bilir ki, Azərbaycan haqlıdır. Bir çoxları bizim fəaliyyətimiz nəticəsində biliblər ki, bu çirkin təxribatı Ermənistan törətmişdir"

### Bir sıra parlamentlər Ermənistanın hərəkətini qəti şəkildə pislədilər

Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribat törətməsi ilə bağlı bir sıra ölkələrin parlamentləri və beynəlxalq parlament təşkilatları da Azərbaycanı dəstəkləyən bəyanatlarla çıxış ediblər.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntop və çoxsaylı deputatlar, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev, Ukrayna Ali Radası sədrinin birinci müavini Ruslan Stefançuk, həmçinin Azərbaycanla dostluq qrupu, Pakistan-Azərbaycan dostluq qrupunun həmsədri, Pakistan Senatının Daimi Komitəsinin sədri Muhəmməd Talha Mahmud, İtaliya Senatının üzvləri Vito Petroçelli, Maria Rizotti, Rossana Boldi, Stefano Luçidi, Cianluka Kastaldi, Paolo Qrimoldi, Kolumbiya Senatının Xarici Əlaqələr Komissiyası, Meksika-Azərbaycan dostluq qrupunun sədri Aqustin Qarsia Rubio, Braziliya Deputatlar Palatasında dostluq qrupunun rəhbəri Klaudio Kaxado, İran parlamentinin deputatları, İctimai Komissiya sədrinin müavini Vali İsmaili, İndoneziya Nümayəndələr Palatasının üzvü Anqiya Erma Rini, İraq Türkməneli Partiyasının sədri Riyaz Sarıkahya, TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Muhammed Xurayçi Niyas Azərbaycanı dəstəkləyən bəyanatlar veriblər.

Bəyanatlarda Azərbaycanın suverenliyi və ərazi bütövlüyü dəstəklənir, Ermənistanın Azərbaycanla dövlət sərhədində törətdiyi təxribat qəti şəkildə pislənir və Ermənistanın bu addımlarının yolverilməz olduğu vurğulanır. Eyni zamanda, Ermənistan tərəfindən artıq 30 ilə yaxın davam edən işğal faktının beynəlxalq hüququn norma və prinsiplərinə tam zidd olduğu ifadə edilir.

### Qoşulmama Hərəkatı Azərbaycanın ədalətli mövqeyini birmənalı dəstəklədi

Bu günlərdə Azərbaycana ən mühüm beynəlxalq dəstəklərdən biri üzvlərinin sayına görə BMT-dən sonra dünyanın ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatından (QH) gəldi. Belə ki, QH Əlaqələndirmə Bürosu Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədində hərbi təxribatı ilə bağlı kommünike qəbul etdi. Kommünikedə QH-nın üzv dövlətləri tərəfindən Ermənistanın hərbi birləşmələrinin Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə qarşı artilleriya qurğularından istifadə etməklə iki dövlətin beynəlxalq sərhədi boyunca hücum etməsi qətiyyətlə pislənilir. Bu insidentin bölgədə hərbi gərginliyin artmasına və çoxsaylı itkilərə səbəb olduğu vurğulanır.

Sənəddə QH Əlaqələndirmə Bürosu Ermənistan və Azərbaycan arasındakı münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllini dəstəklədiyini bir daha təsdiq edib. Həmçinin təşkilata üzv dövlətlər Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə birmənalı dəstəyini bildirərək, respublikamızın öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə göstərdiyi səylərlə həmrəy olduqlarını ifadə ediblər. Beləliklə, QH-nin 120 üzv dövləti tərəfindən Ermənistan silahlı qüvvələrinin iki ölkə sərhədində son hərbi təxribatı və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqe ortaya qoyuldu.

Beləliklə, son hadisələrdən sonra Ermənistan beynəlxalq səviyyədə açıq mətnlə dəstəklənmədi. Azərbaycana isə dost və müttəfiqlərdən qətiyyətli dəstək gəldi, ölkəmizin haqlı mövqeyi aydın müdafiə olundu. Eyni zamanda ABŞ Konqresində qəbul edilən düzəlişlər dünya erməniliyinə böyük zərbə oldu. Bu baxımdan Ermənistanın son hərbi təxribatı əslində Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə daha yaxından çatdırılmasına və möhkəmlənməsinə xidmət etdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Los-Ancelesdə erməni radikallarının törətdiyi barbarlıqla əlaqədar ABŞ-ın Azərbaycandakı səfiri XİN-ə çağırılıb

**İyulun 21-də Los-Ancelesdə yaşayan radikal erməni daşnakları Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun binası qarşısında aqressiv və təxribatçı şüarlarla etiraz aksiyası keçiriblər.**

"Erməni radikal qüvvələrinin aksiyasına cavab olaraq Kaliforniyada yaşayan Azərbaycan icmasının üzvləri sayca onlardan dəfələrlə çox olan erməni təxribatçılarının qarşısına çıxıb və Ermənistanın Azərbaycana qarşı təcavüzü və etnik təmizləmə siyasətini ifşa edən şüarlar səsləndiriblər. Radikal erməni daşnakları dinc azərbaycanlı nümayişçilərə qarşı zorakılıq və aqressiya nümayiş etdirib, hətta təhlükəsizliyi təmin etməyə cavabdeh olan Los-Anceles polisi belə onların bu vandalizminin qarşısını almağa müvəffəq olmayıb. Azərbaycanlı nümayişçilərə hücum edən erməni radikal nümayəndələri biri qadın olmaqla 7 nəfərə müxtəlif dərəcəli xəsarətlər yetiriblər. Təəssüflə qeyd etmək istərdik ki, hazırda dünyanın müxtəlif bölgələrində, o cümlədən ABŞ və Avropanın bir sıra ölkələrində dinc azərbaycanlı nümayişçilərə qarşı radikal erməni qüvvələri tərəfindən zorakılıq və vandalizmin tətbiq edilməsi cəhdlərini müşahidə edirik".

Bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın açıqlamasında yer alıb.

Açıqlamada bildirilir ki, fundamental dəyərlərə, o cümlədən azad şəkildə fikrini ifadə etmək hüququna zidd olan və ümumiyyətlə, sivil davranışa sığmayan bu kimi təxribatçı hərəkətlər Ermənistan respublikasının və bu ölkə rəhbərliyinin yürütdüyü təcavüzkar siyasətin radikal erməni qüvvələri tərəfindən həyata keçirilməsinin bariz nümunəsidir. ABŞ-ın Los-Anceles şəhərində, eləcə də Avropa ölkələrində, o cümlədən iyulun 22-də Brüssel şəhərində azərbaycanlı nümayişçilərə qarşı erməni radikal ünsürləri tərəfindən zorakılıq və vəhşiliyin nümayiş etdirilməsinə görə erməni cinayətkarları hüquqi məsuliyyətə cəlb olunmalı, həmçinin bu ölkələrdəki azərbaycanlı icmaların təhlükəsizliyinin təmin olunmasında aidiyyəti ölkələrin hüquq-mühafizə orqanları məsuliyyət daşımalıdırlar.

Qeyd etmək istərdik ki, Los-Anceles şəhərində erməni radikallarının törətdiyi barbarlıq əməlləri ilə əlaqədar ABŞ-ın ölkəmizdəki səfiri XİN-ə çağırılıb.

# *Rusiya XİN:* Dağlıq Qarabağ münaqişəsinin həlli regionda vəziyyəti əhəmiyyətli dərəcədə sağlamlaşdırmağa imkan verəcək

"Dağlıq Qarabağ münaqişəsinin nizamlanması regiondakı bütün dövlətlərin və danışıqlar prosesində iştirak edən ölkələrin mənafelərinə uyğundur".

Rusiya Xarici İşlər nazirinin müavini Aleksandr Qruşko bu fikri TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində söyləyib.

A.Qruşko deyib: "Dağlıq Qarabağda vəziyyətlə əlaqədar hesab edirik ki, təkcə Rusiya deyil, bu regionda sabitliyin bərqərar olmasının və möhkəmlənməsinin qeydinə qalan digər dövlətlər də tərəfləri sülhün bərqərar olmasına, atəşkəsə, tərəflərin heç cür razılığa gələ bilmədiyi barışıq məsələsinə təşviq edən bəyanatlar verməlidirlər. İndiki vaxtda vəziyyətin sabitləşməsi prosesin bütün iştirakçılarının mənafelərinə uyğundur".

Nazir müavininin fikrincə, Rusiya bunu əsas götürür ki, indiyə qədər beynəlxalq birliyin Dağlıq Qarabağ məsələsinə tətbiqən ATƏT və Minsk qrupu çərçivəsində qazandığı bütün nailiyyətlər danışıqlar masası üstündə qalmalıdır. A.Qruşko deyib: "Budəfəki böhran Dağlıq Qarabağ münaqişəsinin nizamlanması perspektivlərinin yaxınlaşması üçün ilk növbədə Rusiyanın sərf etdiyi titanik səylər nəticəsində əldə edilmiş tərəqqidən geri çəkilməyə səbəb olmamalıdır".

Rusiyalı diplomat qeyd edib ki, bu münaqişənin həlli bütövlükdə regionda vəziyyəti əhəmiyyətli dərəcədə sağlamlaşdırmağa imkan verəcək, o cümlədən bütün tərəfdaşlar arasında qarşılıqlı münasibətləri yaxşılaşdıracaq. XİN rəhbərinin müavini daha sonra deyib: "Biz hamını, xüsusən Minsk qrupunun üzvü olan ölkələri bu cür mövqe tutmağa çağırırıq".


## Açıq Səhmdar Cəmiyyəti "Standard Insurance" Sığorta Şirkətinin müflis elan olunması ilə bağlı məhkəmə baxışı barədə əlavə məlumat

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 19.05.2020-ci il tarixli 24 nömrəli qərarı ilə Bakı şəh., Nəsimi ray., Şəmsi Bədəlbəyli, 94 ünvanında yerləşən Açıq Səhmdar Cəmiyyəti "Standard Insurance" Sığorta Şirkətinin sığorta fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş lisenziyası ləğv edilmiş və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən sığortaçı barəsində iflas prosedurunun başlanılmasına dair ərizə ilə məhkəməyə müraciət edilmişdir.

Açıq Səhmdar Cəmiyyəti "Standard Insurance" Sığorta Şirkətinin müflis elan olunması ilə bağlı 06 iyul 2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulmuş məhkəmə baxışı xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə əlaqədar olaraq təxirə salınmışdır. Məhkəmə baxışı 29 iyul 2020-ci il tarixdə saat 15:00-da Bakıxanov qəsəbəsi, Oskar Əfəndiyev küçəsində yerləşən Bakı Kommersiya Məhkəməsində keçiriləcəkdir.

***Mərkəzi Bankın İdarə Heyəti***

## Samux Rayon Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi elektron satınalma vasitəsilə abadlıq işlərinin aparılması məqsədilə mal-materialların satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi.

Malgöndərənlər (podratçılar) müəyyən edilən məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar. Əlaqələndirici şəxs: Qələndər Əhmədli, tel: (022) 275-14-68.

Tenderdə iştirak haqqı 100 manatdır.

**Təşkilat: Samux Rayon Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi**
**VÖEN: 6900035021**
**Bank: Kapital Bank ASC Samux rayon filialı**
**Kod: 200855**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ72AIIB33010019448500203185**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **17 avqust 2020-ci il saat 12:00-a** qədər, tender təklifi və bank təminatını isə **25 avqust 2020-ci il saat 12:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **26 avqust 2020-ci il saat 12:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***


# Ermənistan yeni siyasi böhrana yuvarlanır

## Paşinyan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından da istədiyini ala bilmədi

*Əvvəli 1-ci səh.*

Bu məntiqsiz addım Avrasiya İtttifaqı hökumətlərarası şurasının iclasından fürsət kimi istifadə edib Rusiyanın Azərbaycanla Ermənistan arasında kəskinləşən münasibətlərdə daha fəal mövqe tutmasına nail olmaq idi. Lakin Paşinyanın Minskdə sərgilədiyi mövqe onun üçün kifayət qədər vərdiş edilmiş formada olub: "Nikol Paşinyan Minskə səfəri zamanı ikili mövqe tutub. O, öz rəsmi bəyanatında bir tərəfdən neytral tonda Azərbaycan rəhbərliyi ilə sülh danışıqlarının zəruriliyini vurğulayıb, amma yeri gəlmişkən yalnız Avrasiya Hökumətlərarası Şurasının iclasının gündəliyinə daxil edilmiş məsələlərə toxunub. Digər tərəfdən, sammitin kuluarlarında Ermənistan rəhbəri cari vəziyyətin kəskinləşməsi haqqında "həqiqəti" söyləməyə çalışıb, hansısa üçüncü tərəfi münaqişəyə təhrikçilikdə təqsirləndirib".

Saytda yazılıb ki, Paşinyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) kömək istəməsini Rusiya Federasiyasını cari münaqişəyə cəlb etmək cəhdi kimi qiymətləndirmək olar. Xüsusi halda Ermənistanın baş naziri bunu güman edir ki, KTMT Ermənistanın müdafiəsi üzrə öhdəlik götürüb, bu təşkilatın tərəfləri "ayırmaq"dan imtina etməsi isə onun fəaliyyət qabiliyyətli olmamasını göstərir: "Bu halda Paşinyan özü Yerevanın beynəlxalq birlik üzrə tərəfdaşları ilə qarşılıqlı münasibətlərini qismən korlayıb. Əvvələn, Paşinyan hələ Ermənistanda müxalifətdə olarkən ardıcıl olaraq respublikanın KTMT-dən çıxmasının tərəfdarı idi. İkincisi, 2018-ci ildə onun hakimiyyətə gəlişindən demək olar ki, dərhal sonra həmin vaxt təşkilatın baş katibi vəzifəsini tutan Yuri Xaçaturov həbs edildi. Daha sonra məhz Yerevan təşkilata yeni baş katib təyin edilməsinə uzun müddət mane oldu".

Vurğulanır ki, Ermənistanın baş nazirinin Amerikaya rəğbətini gizlətmədiyini nəzərə alsaq, Paşinyanın KTMT və Rusiya tərəfindən dəstəklənməyə ümid etməsi ən azı sadəlövhlükdür. Məsələn, Ermənistan hökumətinin başçısı hakimiyyətə gələndən dərhal sonra bir sıra gəlişigözəl kadr dəyişiklikləri etdi. O cümlədən amerikapərəst qurumlarla, xüsusən Soros Fondu ilə əlaqələri barədə əsaslı şübhələr olan bəzi şəxsləri özü ilə gətirdi. Ermənistan parlamentində Rusiya ilə fəal yaxınlaşmanın tərəfdarı olan yeganə hərəkatın - "Çiçəklənən Ermənistan" partiyasına qarşı təqiblər başladı. Hazırda həmin partiyanın lideri Qagik Sarukyan üç cinayət işinin fiqurantıdır".

Belə görünür ki, Ermənistan qarşıdakı dövr ərzində həm ölkə daxilində, həm də xaricində çox ciddi yeni problemlər yaşayacaq. Yerevanın bu gedişlə xaricdəki müəyyən dəstəklərindən də tam məhrum olması gözlənilir. Bir vaxtlar Rusiyada Ermənistana lobbiçilik edən qüvvələr indi tamam əks mövqe sərgiləyirlər. Əsas səbəb kimi də o göstərilir ki, Paşinyan antirusiya siyasəti yürüdür və Qərbdən gələn göstərişlər əsasında hərəkət edir. Eyni zamanda, Ermənistan özünə əsas dayaq hesab etdiyi KTMT-yə üzv dövlətlərlə, xüsusilə də Qazaxıstan və Belarusla münasibətləri kifayət qədər korlayıb. Belə olan halda bu ölkənin həm daxili, həm də xarici siyasəti çox ciddi problemlərlə rastlaşıb. Bu halda Paşinyanın qarşıda dayanan çox ağır vəzifələrin öhdəsindən gələ biləcəyi sual altına düşür.

Bunlarla yanaşı, Ermənistan hökuməti vətəndaşları sosial-iqtisadi problemlərin həll olunacağına inandırmağa çalışır. "Lragir" saytı yazır ki, verilən vədlər yalandır. Sosial-iqtisadi problemlərin yaxın gələcəkdə aradan qaldırılmasına dair vədlər ümidverici deyil: "Çünki ölkədə qanunlara uyğun tədbirlər görülmür. İnsanlar problemlərin həllini yalnız ölkəni tərk etməkdə görürlər. Ermənistan iqtisadiyyatının yaxşılaşması reallaşmayan arzudur. Paşinyan hökumətinin maaşların və pensiyaların artırılması ilə bağlı verdiyi vəd yalandır. Ölkəni idarə edənlər əhalinin gəlirlərini artırmaq istəmirlər. Ermənistan hökuməti erməni xalqını səfalətə məhkum edir. Ölkədə iqtisadiyyatın inkişafı real deyil. Bu da hakimiyyətdən narazılığı artırır, amma iqtidar bu narazılığı repressiya, güc yolu ilə yatırmağa çalışır və nəticədə vətəndaş qarşıdurması ehtimalı yüksəlir".

Bütün bunlar qarşıdakı dövr ərzində Ermənistanı çox ciddi problemlərin və vətəndaş qarşıdurmasının gözlədiyini deməyə əsas verir. Bu durumda Nikol Paşinyanın baş nazir postunda qala bilməsi də sual doğurur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında quraşdırılmış darvazalar üçün avtomatik qolların satın alınması ilə bağlı kotirovka sorğusuna dair Satınalmalar komissiyasının 01 iyul 2020-ci il tarixli qərarına əsasən fiziki şəxs Nağıyev Mərifət Hafiz oğlu qalib elan edilmişdir.

Qalib şəxslə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# Ölkə ərazisində elektrik enerjisi təsərrüfatının yenilənməsi istiqamətində genişmaştablı işlər görülür





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə həyata keçirdiyi sosial siyasətin tərkib hissəsi olaraq əhalinin elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində "Azərişıq" ASC qarşıya qoyulan tədbirlər proqramının icrasına məsuliyyətlə yanaşır. Hazırda demək olar ki, ölkənin əksər ərazilərində elektrik enerjisi təsərrüfatının yenilənməsi istiqamətində genişmaştablı işlər görülür.

**Şimal RETSİ (Regional Enerji Təchizatı və Satışı İdarəsi), Şabran Elektrik Şəbəkəsində** əhalini etibarlı və fasiləsiz şəkildə elektrik enerjisilə təmin etmək məqsədilə bir çox işlər görülüb. Şabran rayonunun elektrik enerjisi ilə təmin edən 110/10 kV-luq 2x16 MVA gücündə "Rəhimli" yarımstansiyası əsaslı şəkildə yenidənqurulmuş və gücləndirilmiş, 2 ədəd əlavə 35 kV-luq yarımstansiya tikilib istifadəyə verilmişdir, uzun məsafəli xətlər ləğv olunaraq abonentlər yaxın və etibarlı məsafədən elektrik enerjisi ilə təchiz olunmuşdur. Şabran rayonunun Pirəbədil kəndində yerləşən ümumilikdə 6 kəndi elektrik enerjisi ilə təchiz edən 35/10 kV-luq, "Pirəbədil" yarımstansiyasında hazırda əsaslı və yenidənqurma işləri aparılır. Həmçinin rayonun 17 kəndində yenidənqurma işləri aparılaraq kabelləşmə başa çatmış, güc mərkəzləri yaradılmaqla yeni transformatorlar quraşdırılmışdır.

**Şimal RETSİ, Xaçmaz Elektrik Şəbəkəsində** də geniş miqyaslı işlər görülür. 2020-ci ilin 6 ayı ərzində yenidənqurma işləri ilə əlaqədar Xaçmaz rayonu Müşkür kəndində, Xaçmaz şəhəri 21,25 və 61-ci məhəllələrdə müasir tipli transformator məntəqələri quraşdırılıb, yeni kabellər çəkilib, yeni dəmir beton və ya metal dayaqlar basdırılıb. Bir sözlə adı çəkilən ərazilərin elektrik enerji sistemi tamamilə yenidən qurulub. Xaçmaz rayonu Maqsudkənd adlanan ərazidə yararsız dayaqlar yenisi ilə əvəz olunub, yeni kabellər çəkilərək abonentlər fasiləsiz elektrik enerjisi ilə təmin olunub. Həmçinin Xaçmaz Elektrik Şəbəkəsi üzrə 60-dan çox transformator məntəqəsində cari təmir işləri görülüb.

**Şimal RETSİ, Quba Elektrik Şəbəkəsi** xüsusilə ucqar dağ kəndlərində istehlakçıların dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması məqsədilə yeni güc mərkəzləri istifadəyə verir. Rayonun Kuncuq kəndi ərazisində bu ilin iyun ayında 35/0,4 kV-luq 100 kVa gücündə transformator məntəqəsi quraşdırılaraq istismara verilib. Bunadək Kuncuq kəndinin elektrik enerjisi ilə təchizatı qonşu Qalmıx kəndində yerləşən transformatordan qidalanıb. Kəndlər arasında olan məsafə isə 1800-2000 metrdir. Bu səbəbdən də Kuncuq kəndində elektrik enerjisi çox zəif gücdə olub. Bundan başqa rayonun Qam-Qam kəndi ərazisində şəbəkələrin perspektiv inkişafı istiqamətində görüləcək işlərlə əlaqədar 35/10 kV gücü 4 MVA gücündə olan yeni "Rustov" yarımstansiyasının tikintisinə başlanılıb. Tikintini şərtləndirən amil Rustov ərazisini elektrik enerjisi ilə təchiz edən 10 kV Rustov hava xəttinin uzunluğunun normadan artıq olmasıdır (68 km). Həmin yarımstansiyanın istismara verilməsi ilə mövcud 10 kV-luq Rustov HX hava xətti 3 hissəyə bölünəcək, ümumilikdə 13 min sakinin elektrik enerjisi ilə təchizatı dayanıqlı və keyfiyyətli olacaqdır. Digər tərəfdən Əsparəsti və Qorxmazoba kəndlərinin qidalanması da yeni inşa ediləcək "Rustov" yarımstansiyasından olacaq. Bununla da Pirvahid hava xəttinin uzunluğu 4,2 km qısaldılacaqdır.

500 dən çox sakinin yaşadığı Qubanın Caqacuq kəndinində də elektrik enerjisi şəbəkəsi tamailə yenilənir. Yararsız naqil və dayaqlar yeni beton dayaq və kabellərlə əvəz olunur, yeni müasir tipli elektrik sayğacları quraşdırılır. **Ümumilikdə Şimal RETSİ ərazisində son 6 ay ərzində istehlakçılar 12860 yeni sayğacla təmin olunub.**

"Azərişıq" ASC-nin regionlarda gördüyü işlərin əsas məqsədi abonentləri dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz etmək, eyni zamanda tamamilə yenidən qurulan elektrik təchizatı şəbəkələrində itkiləri minumuma endirməkdir.

## B İ L D İ R İ Ş

"Bakı Telefon Rabitəsi" MMC tərəfindən 21.07.2020-ci il tarixdə Elektrik və məişət təsərrüfat mallarının satın alınması üzrə keçirilən elektron satınalmada iştirak etmək üçün qeydiyyatdan keçən malgöndərənlərin (podratçıların) yetərli say olmadığı üçün tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən ləğv edilmişdir.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfat hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün standart tipli fizika, kimya və biologiya laboratoriyası dəstlərinin satın alınması məqsədilə *tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. Standart tipli fizika, kimya və biologiya laboratoriyası dəstlərinin satın alınması;

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 300 (üç yüz) manat məbləğində heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən müvafiq sahədə peşəkarlığı və təcrübəsi (bağladığı müqavilələr haqqında məlumat);*
- *iddiaçının 2018-ci ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının 2018-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənəd;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **13.08.2020-ci il saat 10:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **21.08.2020-ci il saat 10:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **24.08.2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*


# OXUCULARIN NƏZƏRİNƏ "AZƏRBAYCAN"

*qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC* (012) 440-46-94, (070) 244-17-34
*"Azərpoçt" ASC* (012) 598-49-55, (051) 225-02-13
*"Qaya" firması* (012) 564-63-45, (050) 214-04-05
*"Kaspi" MMC* (012) 432-39-55, (012) 510-82-24
*"Region Press" MMC* (055) 316-79-01, (050) 316-79-01
*"Səma-M" MMC* (012) 594-09-59
*"Ziya" LTD* (012) 497-76-96, (050) 306-77-22
*"Pressinform" MMC* (012) 598-49-52, (070) 340-01-00
*"City press" MMC* (055) 819-09-26

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

1 aylıq
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 22 iyul 2020-ci il tarixli № 142 (8458) saylı buraxılışında dərc olunmuş "Bakı Metropoliteni" QSC-nin Müxtəlif ölçü və rəngdə kafel,metlax və keramoqranitin satın alınmasına dair açıq tender haqqında elanında tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədlərin qəbulu vaxtı 13 avqust 2020-ci il saat 15:00-a kimi, Müsabiqənin bitmə tarixi və vaxtı 21 avqust 2020-ci il saat 15:00-a kimi və zərflərin açılış tarixi və vaxtı isə 24 avqust 2020-ci il saat 15:00-a kimi oxunmalıdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən "Dəftərxana materiallarının satın alınması" ilə bağlı "Azərbaycan" qəzetinin 18 iyun 2020-ci il tarixli sayında dərc olunmuş satınalma elanında tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi və vaxtı 04 avqust 2020-ci il saat 15:00-dək, tender təklifinin təqdim edilməsinin son tarixi və vaxtı 12 avqust 2020-ci il saat 15.00:dək, zərflərin açılış tarixi və vaxtı 13 avqust 2020-ci il saat 15:00-dək uzadılmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi tərəfindən 24.06.2020-ci il tarixdə " Dəftərxana və təsərrüfat mallarının" elektron satın alınması ilə bağlı elan olunmuş açıq tender proseduru, iddiaçıların sayı yetərsay olmadığı səbəbindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci bəndinə əsasən ləğv edilir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi tərəfindən 24.06.2020-ci il tarixdə "Xüsusi yay geyim formalarının" elektron satın alınması ilə bağlı elan olunmuş açıq tender proseduru, iddiaçıların sayı yetərsay olmadığı səbəbindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci bəndinə əsasən ləğv edilir.

*Tender komissiyası*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə qızı

**NİGAR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Həzi Aslanov Tofiq və Arif Aslanovlar ailələri adından Musa Bağırova həyat yoldaşı

**NAİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə qızı

**NİGAR ABBASZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov və professor-müəllim heyəti Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə qızı

**NİGAR ABBASZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6920
Sifariş 1769
Qiyməti 40 qəpik